# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib



6


SƏS

№ 068 (7236)

24 aprel 2025-ci il.
Qiymәti 60 qәpik


# Azərbaycan-Çin:

## tərəfdaşlıq üçün YENİ SƏHİFƏ!



2

# Almaniya yenidən parçalana bilər

## İqtisadi tənəzzül Almaniya hakimiyyətini sərt addımlar atmağa məcbur edir



© Kay Nietfeld/dpa-Pool/picture alliance

7

### Əcnəbi ekspert: İlham Əliyev Çinə səfəri ilə növbəti dəfə gələcəyə stavka etdi



12

### "Yaşıl Azərbaycan"ın Naxçıvan modeli



13

### Böyük QAYIDIŞ: Həsənriz kəndinə növbəti köç



11

### Xarici, yoxsa yerli məhsul?



16

### Hər yerdə yandırma!



10

# Azərbaycan-Çin:
# tərəfdaşlıq üçün YENİ SƏHİFƏ!

Böyük inkişaf yolu keçən, Zəfər qazanmış Azərbaycan bütün dünyada hörmət olunan və etimad göstərilən ölkəyə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə qısa müddətdə inanılmaz nailiyyətlər qazandıran siyasəti dünya ölkələrində böyük marağa səbəb olub. Dünya ölkələri ilə qarşılıqlı etimad əsasında beynəlxalq münasibətlər, diplomatik əlaqələr də uğurla inkişaf edir. Bu gün Azərbaycan bir çox dünya ölkələri ilə yanşı, Çinlə də diplomatik əlaqələri inkişaf etdirərək daha da möhkəmləndirir. Mövcud əlaqələr sabit və sağlam əsasda inkişaf edir. Ötən müddət ərzində dövlətlərimiz arasında əlaqələr qarşılıqlı faydalı tərəfdaşlıq və dostluq prinsipləri əsasında uğurla inkişaf etdirilib. Bu əlaqələr xalqların mənafeyinə uyğun olaraq inkişaf edir. İkitərəfli əlaqələrin sürətlə inkişaf edərək hazırkı səviyyəyə çatmasında yüksək səviyyəli qarşılıqlı səfərlər və imzalanan sənədlər mühüm rol oynayıb. Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 22-də Çin Xalq Respublikasına dövlət səfəri əlaqələrin daha da genişlənməsinə töhfə verəcək. Səfər çərçivəsində Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü zamanı ötən il Astanada keçirilmiş görüş əsnasında ölkələrimiz arasında strateji tərəfdaşlığa dair qəbul olunan birgə bəyanat məmnunluqla xatırlanıb. Sözügedən sənəddə qarşılıqlı hörmət, bərabər səviyyədə etimad, bir-birinə dəstək və əməkdaşlıq prinsiplərinə əsaslanan strateji tərəfdaşlığın qurulması ifadə olunub. Bu, iki ölkə arasında münasibətlərin tarixində mühüm mərhələni təşkil edən sənəddir. Əməkdaşlığı gələcəkdə də genişləndirmək, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirmək, iki ölkənin ümumi maraqlarını birlikdə müdafiə etmək, eləcə də regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə təşviq etmək kimi məsələlər yer almışdır. Qəbul olunan Bəyanat ÇXR və Azərbaycanı rəsmi strateji tərəfdaşlara çevirib.









### DİALOQ VƏ ƏMƏKDAŞLIĞA XİDMƏT EDƏN LAYİHƏ - "BİR KƏMƏR VƏ BİR YOL"

Görüş zamanı ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərinə və qarşılıqlı dəstəklərinə toxunulub.

Çin Xalq Respublikasının Sədri Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinə (AQEM) sədrliyini məmnunluqla vurğulayaraq, bu xüsusda əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirib. Görüşdə Azərbaycanın və Çinin daim bir-birlərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri məmnunluqla vurğulanıb. Dövlətimizin başçısı "Vahid Çin" siyasətini həmişə dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri birmənalı şəkildə pislədiyini qeyd edib. Azərbaycan və Çinin terrorizm, ekstremizm və separatizmə qarşı birgə səylərlə mübarizəsi qeyd olunub.

Si Cinpin COP29-un Azərbaycanda uğurla keçirilməsi və Qlobal Cənubun maraqlarının təmsil olunması baxımından Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirib. Görüşdə Hökumətlərarası Komissiyanın sonuncu iclasına toxunulub, humanitar və mədəni sahələrdə əməkdaşlıq məsələləri diqqətə çəkilib.

Məlumdur ki, Azərbaycan ÇXR-in Sədri tərəfindən irəli sürülmüş "Bir kəmər və bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biridir. Bu layihə təkcə nəqliyyat əlaqəsini təmin etmir, eləcə də bir sıra ölkələr arasında dialoq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir. Çin Xalq Respublikasının Sədri "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyən ölkələrdən biri Azərbaycanın olduğunu məmnunluqla xatırlayıb və bu çərçivədə ölkələrimiz arasında əməkdaşlıq məsələlərinin perspektivləri müzakirə olunub. Son dövrlərdə Orta Dəhliz vasitəsilə Çindən Avropaya gedən yüklərin həcmində artım dinamikası diqqətçəkəndir və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı imkanlar mövcuddur. Si Cinpin Prezident İlham Əliyevi Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə toplantısına və bu çərçivədə təşkil olunacaq bir sıra təntənəli tədbirlərə dəvət edib.

### ÇİN AZƏRBAYCANIN TƏKLİF ETDİYİ SÜLH GÜNDƏLİYİNİ QƏTİYYƏTLƏ DƏSTƏKLƏYİR

Azərbaycan və Çin arasında əlaqələrin bütün sahələrdə daha da genişlənməsi üçün böyük potensial mövcuddur. İki ölkə arasında nəqliyyat, kənd təsərrüfatı, turizm, energetika, informasiya və kommunikasiya texnologiyaları istiqamətlərində əməkdaşlığın artan dinamikası diqqətdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin iştirakı ilə Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub.

Ardı Səh. 3





Əvvəli səh. 2

# Azərbaycan-Çin: tərəfdaşlıq üçün YENİ SƏHİFƏ!

Prezident İlham Əliyev və Sədr Si Cinpin "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ı imzalayıblar. Hər iki dövlət başçısı diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan-Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirib və səmimi, dostluq mühitində danışıqlar aparıblar. Dövlətlər bir-birini prioritet











təşkil edən, etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiq edərək, qarşılıqlı siyasi etimadı daim möhkəmləndirməyə, qarşılıqlı dəstəyi gücləndirməyə, hər iki ölkənin xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edərək, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul ediblər. Bəyanatda qeyd olunur ki, tərəflər xalqlarının seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər. Azərbaycan tərəfi dünyada yalnız vahid bir Çinin mövcudluğunu, Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi olduğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır. Çin Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir. Sənəddə o da qeyd olunur ki, tərəflər müasirləşməni birgə şəkildə irəli aparmaq və daha yüksək səviyyəli, yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq üçün "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycanın "İpək Yolunun dirçəldilməsi" dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılaşıblar.

## REGİONAL VƏ QLOBAL

## İQTİSADİ İNTEQRASİYAYA TÖHFƏ

Azərbaycan ilə Çin arasında iqtisadi əlaqələrin inkişafı, ölkələrimizin strateji tərəfdaşlıq münasibətlərində mühüm yer tutur. Bu əlaqələrin genişləndirilməsi və mövcud problemlərin həlli məqsədilə 2009-cu ilin mayında Hökumətlərarası İqtisadi Komissiya yaradılıb. 2012-ci ildə Pekində, Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi ilə Çinin Kommersiya Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Həmçinin Azərbaycan 2016-cı ildə Asiya İnfrastruktur İnvestisiya Bankına üzv olaraq beynəlxalq iqtisadi layihələrə daha sıx inteqrasiya edib. Azərbaycanın "Kəmər və yol" təşəbbüsünə verdiyi önəm 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə öz təsdiqini tapıb. Bu mühüm layihə həm Azərbaycan, həm də Çin üçün iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə və regional ticarət marşrutlarının inkişafına xidmət edir.

Azərbaycanın "Kəmər və yol" təşəbbüsünə verdiyi önəm 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə öz təsdiqini tapıb. Bu mühüm layihə həm Azərbaycan, həm də Çin üçün iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə və regional ticarət marşrutlarının inkişafına xidmət edir. Çin hökuməti bu dəmir yolunun istifadəyə verilməsini və tikintisində Azərbaycanın oynadığı mühüm rolu yüksək qiymətləndirib. Çin həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycanla əməkdaşlığa böyük diqqət ayırır.

Ardı Səh. 4

Əvvəli Səh. 3

Bu əməkdaşlıq yalnız iki ölkə arasındakı əlaqələri möhkəmləndirməklə məhdudlaşmır, həm də regional və qlobal iqtisadi inteqrasiyanı gücləndirmək üçün mühüm amildir. Orta Dəhliz Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşruta çevrilib. Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 2024-cü ildə 378 min ton olub və bu göstərici 2023-cü illə müqayisədə 86 faiz çoxdur. 2024-cü il ərzində Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta Dəhlizlə 287 marşrut qatarı yola salınıb.

Onu da qeyd edək ki, Çin Azərbaycanın Orta Dəhliz layihəsindəki rolunu yüksək qiymətləndirir və regionda bu əməkdaşlıq yeni enerji və ticarət marşrutlarının formalaşmasına zəmin yaradır.

# Azərbaycan-Çin: tərəfdaşlıq üçün YENİ SƏHİFƏ!



### İKİ ÖLKƏ ARASINDAKI MÜNASİBƏTLƏRİN GƏLƏCƏK İNKİŞAF İSTİQAMƏTLƏRİ

Son illər ərzində Azərbaycan və Çin arasındakı əlaqələrdə xüsusi canlanma yaşanır. 2022-ci ilin sentyabrında, Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə keçirilən Sammiti zamanı Azərbaycan Prezidenti İlham Əliyev ilə Çin Sədri Si Cinpin arasında keçirilən görüşdə iki ölkə arasındakı münasibətlərin gələcək inkişaf istiqamətləri müəyyənləşdirilib. 2023-cü ilin əvvəlindən isə yüksəksəviyyəli ikitərəfli mübadilələrin yeni dalğası başlayıb, qarşılıqlı səfərlər davam edib.

Bəyanatda ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya mexanizminin əlaqələndirici və rəhbər rolunu gücləndirmək, yaşıl enerji və rəqəmsal iqtisadiyyat sahələrində qarşılıqlı fəaliyyəti gücləndirmək yer alıb. Ticari-iqtisadi sahədə ikitərəfli əməkdaşlığın yüksək keyfiyyətli inkişafına töhfə vermək üçün investisiya əməkdaşlığı üzrə İşçi qrupun yaradılması barədə qərar qəbul olunub. Tərəflər iki ölkənin ticarət və iqtisadiyyatının inkişafı üçün əlverişli şəraitləri birgə yaratmaqla ekoloji təmiz və yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının bazarlara qarşılıqlı çıxışını tədricən genişləndirmək niyyətindədirlər.

Tərəflər sənaye sahəsində əməkdaşlığı daim dərinləşdirməyə və sənayenin rəqəmsal transformasiyasını fəal şəkildə irəlilətməyə hazır olduqlarını da ifadə ediblər.

Səfər çərçivəsində Prezident İlham Əliyev Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət edib, Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin Sədri ilə və Çin Dövlət Şurasının Baş naziri ilə görüşüb. Həmçinin Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, qızı Leyla Əliyeva və digər ailə üzvləri Pekində Böyük Xalq Sarayı ilə tanış olublar.



### ÇOXŞAXƏLİ ƏLAQƏLƏR

Ölkələrimiz arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün böyük imkanlar var və artıq Azərbaycanın müvafiq qurumları ilə Çin şirkətləri arasında bu sahədə çoxsaylı sənədlər imzalanıb, Ticarət dövriyyəsi son dövrlərdə 20 faizdən çox artıb. Bərpaolunan enerji sahəsində əməkdaşlığa dair isə 6 sənəd imzalanıb. Bu sənədlər ümumilikdə 260 meqavat gücündə günəş elektrik stansiyaları, 100 meqavatlıq üzən günəş elektrik stansiyası, 30 meqavat gücündə batareya enerji saxlanc sistemi, dənizdə minimum 2 qiqavat gücündə külək elektrik stansiyasının inşası, daha 2 meqavat gücündə külək enerjisi layihəsinin inkişafı, eləcə də bərpaolunan enerji və elektrik enerji sisteminin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir. İmzalanan sənədlər sırasında İnvestisiya Müqaviləsi Qobustan rayonunda 100 meqavat gücündə günəş elektrik stansiyasının tikintisini və istismarını nəzərdə tutur. 2026-cı ildə istismara verilməsi nəzərdə tutulan stansiyada hər il təxminən 180 milyon kilovatsaat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 39 milyon kubmetr həcmində təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 86 min ton azaltmağa imkan verəcək. Bu layihə üzrə Çin şirkəti ilə əməkdaşlıq hərrac vasitəsi ilə müəyyənləşdirilib.

"Bərpaolunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu isə Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında imzalanıb. Memorandum 2028-ci ildən sonrakı dövr üzrə bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası ilə əlaqədar ötürücü şəbəkədə müvafiq araşdırmaların aparılmasını nəzərdə tutur. Araşdırmaların nəticələrinə əsasən, texniki və iqtisadi baxımdan səmərəli həllərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması planlaşdırılır. İmzalanan bu və ya digər sənədlər dövlətlərarası bərpaolunan enerji sahəsində əməkdaşlığa öz töhfəsini verəcəkdir.

Göründüyü kimi, Çin və Azərbaycan respublikaları arasında demək olar ki, bütün sahələri əhatə edən əlaqələr mövcuddur. Belə ki, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmaq prinsiplərini rəhbər tutan Azərbaycan Çinlə də uğurla və qarşılıqlı etimada əsaslanan münasibətləri davam etdirir. Dövlətimizin başçısının Çinə budəfəki dövlət səfəri iki ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi işinə xidmət edəcək.

***Zümrüd BAYRAMOVA***

# “Azərbaycan və Çin bir-birinə hörmət və etimadla yanaşır”

## Çin mediası Azərbaycan Prezidentinin dövlət səfərinə geniş yer ayırıb

Çin Xalq Respublikasının (ÇXR) mediası Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə dövlət səfərinə geniş yer ayırıb. Dünyanın ən nüfuzlu informasiya agentliklərindən olan Sinxua, geniş oxucu şəbəkəsinə malik gündəlik ”Jenmin Jibao” qəzeti, 1 milyard izləyici auditoriyası olan Çin Mərkəzi Televiziyası (CCTV), nüfuzlu ”China Daily” qəzeti, 50-dən çox dildə yayımlanan Çin milli radiosu, Çin Kommunist Partiyasının rəsmi nəşrlərindən ”Global Times” qəzeti, digər qəzet və xəbər saytları Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfərinə, səfər çərçivəsində ÇXR Sədri Si Cinpinlə görüşünə, imzalanan sənədlərə, ümumiyyətlə son illər hərtərəfli inkişafın müşahidə olunduğu Azərbaycan-Çin münasibətlərinə dair xəbərlər verib, reportajlar yayımlayıblar.

Çinin milli xəbər agentliyi olan Sinxuanın ”Si Cinpin Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqlar aparıb” başlıqlı məqaləsində deyilir ki, beynəlxalq vəziyyətin dəyişməsindən asılı olmayaraq Azərbaycan-Çin münasibətləri öz inkişaf dinamikasını qoruyub saxlayıb, iki ölkə qarşılıqlı hörmət, bərabərlik və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Sinxua yazır ki, Azərbaycan və Çin bir-birinin milli dövlət suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü, milli şəraitə uyğun













inkişaf yolunu dəstəkləyir. Məqalədə ”Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində iki ölkənin səmərəli əməkdaşlığından da söz açılıb.

Sinxua agentliyi dövlət başçılarının imzaladığı ”Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat”ın mətnini də yayımlayıb. Agentlik Prezident İlham Əliyevin həyat və fəaliyyətinə həsr olunan xüsusi material da hazırlayıb.

”China Global Television Network” (CGTN telekanalının internet səhifəsində ”Çin Azərbaycanla hərtərəfli strateji tərəfdaşlıq qurur” başlıqlı yazıda qeyd olunur ki, Azərbaycan Prezidentinin Çinə səfər zamanı dövlət başçıları İlham Əliyev və Si Cinpin iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlığın qurulduğunu elan ediblər.

”Altai News Network” saytı yazır ki, Azərbaycan və Çin bir-birinə hörmət və etimadla yanaşır, bütün sahələrdə əməkdaşlığı, iqtisadi-ticari əlaqələri, o cümlədən rəqəmsal iqtisadiyyat, yaşıl enerji, elm və texnologiya sahələrində əməkdaşlığı genişləndirir, xalqlar arasında təmasların daha da sıxlaşmasına çalışırlar. Bundan başqa, tərəflər hakim partiyalar arasında əlaqələrin dərinləşməsi, beynəlxalq və regional məsələlərdə əlaqələndirmənin gücləndirilməsi istiqamətində səylərini davam etdirirlər.

Çin mediası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinin Sinxua agentliyinə məxsusi müsahibəsindən çox sayda xəbər hazırlayaraq oxucularına təqdim edib.







# İcma: ”Ermənistan həqiqətin ortaya çıxarılmasına və barışığa xidmət edən addımlarımıza qarşı çıxır”

***Qərbi Azərbaycan İcması ədalətə əsaslanan davamlı sülhə və barışığa nail olmaq üçün Qərbi azərbaycanlıların qayıdış hüququ və onların mədəni irsi barədə beynəlxalq ictimaiyyəti məlumatlandırmaqda davam edir.***

Ermənistan tərəfi bu cür tədbirlərdən və təqdim olunmuş məlumatlardan düzgün nəticə çıxarmaq, törətdiyi hüquq pozuntuları və ədalətsizliyə görə öz məsuliyyətini etiraf etmək və Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmaq əvəzinə, həqiqətin ortaya çıxarılmasına və barışığa xidmət edən addımlarımıza qarşı çıxır. Bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda, həmçinin deyilir: ”Bu günlərdə Erməni Apostol Kilsəsi və əsas hədəfi guya mədəni irsin qorunması olan ”Monumentwatch” adlı qurum Varşavada keçirilən ”Mədəni yaddaşımızda Qərbi Azərbaycan” adlı sərgi ilə bağlı iftira və təhdid dolu bəyanatlar yayıblar.

Ermənistan hakimiyyət orqanlarının təşkilatçılığı ilə atılması şübhə doğurmayan bu addımlar Ermənistan hökumətinin sülh və barışıq istəmədiyini, bu ölkədə dərin kök salmış irqçilik və dözümsüzlüyü nümayiş etdirir. Çox maraqlıdır, Erməni Apostol Kilsəsi və mədəni abidələrlə bağlı Azərbaycana çoxsaylı iftiralar atan ”Monumentwatch” təşkilatı indiki Ermənistan ərazisində cəmi bir əsr əvvəl rəsmi dövlət qeydiyyatında olmuş 269 məsciddən 268-nin məhv edilməsinə və 500-dən artıq azərbaycanlı məzarlığının dağıdılmasına necə haqq qazandırır?

Qərbi Azərbaycan İcması Erməni Apostol Kilsəsi və ”Monumentwatch” adlı ekstremist qurumun təhdid və iftira yolu ilə həqiqətlərin ört-basdır edilməsinə xidmət edən, dözümsüzlük yayan və barışığa mane olan bu addımlarını sərt şəkildə qınayır, beynəlxalq ictimaiyyəti Ermənistan ərazisindəki Azərbaycan mədəni irsinin bərpası və qorunması üçün bu dövlətə təzyiq göstərməyə çağırır”.













# YAP nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib

***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Kommunist Partiyasının dəvəti ilə Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumunda iştirak etmək üçün Çin Xalq Respublikasına səfər edib.***

Aprelin 23-də YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Sincan-Uyğur Muxtar Rayonu Partiya Komitəsinin katibi Ma Sinjuy ilə nümayəndə heyətlərinin rəhbərləri arasında keçirilən görüşdə iştirak edib. Ma Sinjuy Çinin Foruma dəvət olunmuş bütün siyasi partiyaların təmsil etdikləri ölkələrlə istər ikitərəfli, istərsə də Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində əlaqələrin inkişafına böyük önəm verdiyini vurğulayıb.

Daha sonra nümayəndə heyəti Urumçi şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumunun açılış mərasimində və plenar sessiyasında iştirak edib. 23 ölkədən 200 nəfərə yaxın nümayəndənin iştirak etdiyi Forumun açılış mərasimində Sincan-Uyğur Muxtar Rayonu Partiya Komitəsinin katibi Ma Sinjuy, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lyu Cyançao, Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Nurlan Yermekbayev, eləcə də bir sıra üzv ölkələrin siyasi partiya təmsilçilərinin çıxışlarında 2001-ci ildə yaradılmış ŞƏT-in bugünədək keçdiyi inkişaf yoluna nəzər salınaraq təşkilatın Avrasiyada siyasi dialoq və qarşılıqlı faydalı əməkdaşlıq şəraitində sabitlik, təhlükəsizlik və dayanıqlı inkişafa verdiyi töhfələr xüsusi vurğulanıb.

Qeyd olunub ki, ŞƏT-in daimi sülh və çoxtərəfli işbirliyini təşviq edən beynəlxalq təşkilat kimi nüfuzunun artması onun üzvləri və tərəfdaşlarının sayının çoxalmasını da şərtləndirib.

YAP nümayəndə heyəti Sincan-Uyğur Muxtar Rayonu Partiya Komitəsinin katibi Ma Sinjuy və Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lyu Cyançaonun adından verilən rəsmi ziyafətə də qatılıb.

Səfər çərçivəsində, həmçinin nümayəndə heyətinin Urumçi Şəhər Planlaşdırılması Muzeyi, Urumçi Şəhər İdarəetmə Mərkəzi, Urumçidəki Beynəlxalq Sərgi və Konfrans Mərkəzindəki terrorizm və ekstremizmlə mübarizə sərgisi ilə tanışlığı olub. Eyni zamanda, muxtar rayonun Çantsi şəhərində



elektrik enerjisinin ötürülməsi və transformasiyası üçün avadanlıqlar istehsal edən TBEA şirkətinin qərargahı və Sincan Kənd Təsərrüfatı Sərgi Parkına ziyarət təşkil edilib.

Qeyd edək ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli və "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev daxildir.



*KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*

# "Azərbaycan-Çin əməkdaşlığı yüksələn xətlə inkişafdadır"



"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbul olunması bu gün hər iki ölkənin daha geniş miqyasda əməkdaşlıq etməsinə imkan yaradıbdır. Çin Xalq Respublikasının dünyada artan mövqeyini, sürətli iqtisadi inkişafa malik olduğunu nəzərə alsaq, Azərbaycanın bu ölkə ilə münasibətlərinin yaxşılaşmasının böyük əhəmiyyət kəsb etməsini aydın görərik". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri xüsusilə vurğulayıb ki, cənab Prezident İlham Əliyev Çin Xalq Respublikası ilə bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə və möhkəmləndirilməsinə böyük önəm verir. "Dövlətimizin başçısı Çinin "Sinxua" agentliyinə verdiyi müsahibəsində dostluq münasibətlərimizə ətraflı aydınlıq gətirmiş və bildirmişdir ki, hər iki ölkə arasında getdikcə artan iqtisadi-ticari əməkdaşlığa baxmayaraq, hələ də reallaşdırılmayan böyük potensial mövcuddur. Əlbəttə, bu potensialdan səmərəli istifadə etmək üçün dövlətlər bir-birlərinin təşəbbüslərini dəstəkləməli və birgə layihələrin həyata keçirilməsinə çalışmalıdırlar. Hazırda bu istiqamətdə həyata keçirilən tədbirlər təqdir olunmalıdır. Azərbaycan ÇXR-in sədri tərəfindən irəli sürülmüş "Kəmər və yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biridir və bu təşəbbüsün reallaşdırılmasına dəstək verməkdədir.

Azərbaycan ərazimizdən yükdaşımaların artmasını iqtisadi inkişafımızın əsaslarından biri kimi qiymətləndirir və buna görə də ölkədə yol təsərrüfatının genişləndirilməsinə böyük diqqət yetirilir. Son 20 ildə ölkəmizdə 21 min kilometr avtomobil yolunun salınması bu diqqətin nəticəsidir. Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması sahəsində görülən işlər də uğurludur. Son illər 1500 kilometrdən artıq dəmir yolu tikilib və 1800 kilometr sahə təmir edilmişdir. Azərbaycan ilə Çin arasında tranzit daşımalarının həcmi 2023-cü illə müqayisədə 86 faiz artmışdır. Çin həm də Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşıdır. Artıq əmtəə dövriyyəsinin həcmi 3,744 milyard dollar təşkil edir. Bildirildiyi kimi, iki ölkə arasında bütün sahələrdə iqtisadi-ticari əlaqələr, əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir ki, bu da xalqların və dövlətlərin yüksəlişi, insanların rifahı və təhlükəsizliyi üçün çox vacibdir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Almaniya yenidən parçalana bilər

## İqtisadi tənəzzül Almaniya hakimiyyətini sərt addımlar atmağa məcbur edir

***Avropanı cənginə alan sosial, iqtisadi, siyasi gərginlik bu qədim qitəni çıxılmaz vəziyyətə, həlli mümkün olmayan problemlərlə üz-üzə qoyub. Xüsusilə də, ABŞ-ın yeni prezidenti Donalt Trampın gömrük rüsumlarını artırması Avropa ölkələrinin iqtisadi-ticarət əlaqələrinə zərbə vurub. Bundan ən çox əziyyət çəkən isə sadə insanlardır. Ekspertlərin gəldiyi qənaətə görə, növbəti aylarda Avropada sosial, iqtisadi vəziyyət daha da ağırlaşacaq: "Növbəti aylar Avropa iqtisadiyyatları üçün acınacaqlı olacaq. Gəlirlər azalacaq, tənəzzülün başvermə ehtimalı var və faiz dərəcələri yüksəlməli olacaq, bu da ev təsərrüfatlarına və ailələrə daha çox təzyiq göstərəcək".***







Araşdırmalara görə, hazırkı mərhələdə vəziyyəti daha çox ağır olan dövlətlər arasında Fransa və Almaniya ön sırada yer alırlar. Bunu sözügedən ölkələrin rəsmi dairələri də etiraf edirlər. Almaniya Ticarət və Sənaye Palatasının rəhbəri Peter Adrian bildirib ki, Almaniya və onun iqtisadiyyatı tənəzzüldədir. Biz Avropada istehsalı yenidən koronavirusdan əvvəlki səviyyədən aşağı olan bir neçə ölkədən biriyik. Əhvali-ruhiyyə bəzən çox pis olur, xüsusən də orta şirkətlər arasında. Bazarda hər hansı bir yerə sərmayə qoymaq istəməmək ab-havası hökm sürür. Bununla belə başa düşmək lazımdır ki, koronavirus pandemiyası dövrü artıq başa çatıb, ona görə də istehsal həcmini artırmaq lazımdır. Almaniya iqtisadiyyatı sürətlə mənfiyə doğru gedir. Eyni zamanda, ilin sonunda iqtisadi artımın heç olmasa sıfır olacağı təqdirdə bunu xoşbəxtlik saymaq mümkün olacaq".

Peter Adrian onu da qeyd edib ki, indiyədək bürokratik əngəllər alman şirkətləri üçün bir çox problemlər yaradır: "Buna görə də onlar müxtəlif bildirişlərə və sənədlərə çox vaxt sərf etməli olurlar. Eyni zamanda, dəyərli vaxt itirilir ki, bu da biznesdə yeni həllər və konsepsiyalar üzərində işləməyə sərf edilə bilər".

### Yeni kansler Fridrix Mertzi çətin sınaqlar gözləyir

Acınacaqlı vəziyyətin hökm sürməsi onu deməyə əsas verir ki, Almaniyada seçkilərdən sonra ölkənin yeni kansleri olan Fridrix Mertzi ağır və üzücü proseslər gözləyir. Yəni əhalinin sosial, iqtisadi durumu yaxşılaşmasa, vergilər azaldılmasa, kömürük rüsumlarının məbləğində dəyişikliklər olunmasa F.Merzi fəlakətlə üzləşə bilər. Hansı ki, bu zaman Almaniya ictimaiyyəti seçkiqabağı verdiyi vədləri yerinə yetirmədiyinə görə üsyanlar yolu ilə onu hakimiyyətdən uzaqlaşdıra bilər. Nəzərə almaq lazımdır ki, Almaniyada Bundestaqa keçirilən növbədənkənar seçkilərdə Xristian Demokrat İttifaqı və Xristian Sosial İttifaqı (CDU/CSU) 28,6 faiz səslə qalib gəlib. Məlumata görə, seçkidə ikinci pillənı 20,8 faiz səslə "Almaniya üçün Alternativ" (AfD) partiyası tutub. Üçüncü pillədə isə 16,4 faiz səslə Almaniyanın hazırkı Kansleri Olaf Şoltsun təmsil etdiyi "Sosial Demokrat Partiyası" qərarlaşıb. Bununla yanaşı, "Yaşıllar" partiyası 11,6%, "Sol Partiya" isə 8,8% səslə Bundestaqda yerini təmin edib. "Sahra Vaqenknext İttifaqı" və "Azad Demokrat partiyası" 5 faizlik səs baryerini keçə bilmədiyindən parlamentdə təmsil olunmayacaq.

Almaniya mediası yazır ki, 2021-ci ildəki seçkilərlə müqayisədə "AfD" nəticələrini iki qat artırıb, Olaf Şoltsun partiyası isə tarixində ilk dəfə say baxımından Bundestaqda üçüncü pillədə yer alıb. Olaf Şoltsun rüsvayçı formada seçkidə uduzması onu göstərir ki, bu şəxs istər daxili, istərsə də xarici siyasətdə ciddi səhvlərə yol verib, yanlış, bağışlanması mümkün olmayan səhv siyasət aparıb. Ekspertlər iddia edirlər ki, Şoltsdan qalan böhranlı durum Mertzin hakimiyyəti dövründə daha da dərinləşəcək. Hətta vəziyyətin son dərəcə kritik xarakter alması ilə Almaniyanın yenidən parçalanması problemi yarana bilər. Bunu hakimiyyətə qarşı daim sərt mövqeyi və fəaliyyəti ilə seçilən Sol Partiyasını təmsil edən Türingiyanın baş naziri Bodo Ramelou KİV-lərə verdiyi açıqlamasında bəyan edib. O etiraf edib ki, Almaniya birləşmədən sonra ən ağır və böhranlı dövrünü yaşayır. Bodo Ramelou Almaniyanın Şərqi və Qərbi əyalətlərə bölünməsi riskinin yarandığını söyləyib: "Təəssüflər olsun ki, bu belədir. Almaniya dövlətinin idarə edilməsində ciddi qüsurlara yol verildiyindən ölkə parçalanma həddi ilə üzləşib".

### Almaniya 1990-cı illərə qayıdır

Məlum faktdır ki, İkinci Dünya müharibəsində rüsvayçı məğlubiyyətlə üzləşən Almaniya cəza olaraq iki yerə parçalandı. 3 oktyabr 1990-cı ilə qədər Almaniya Demokratik Respublikası və Almaniya Federativ Respublikası olaraq fəaliyyət göstərdilər. Sovetlər birliyinin dağılması ilə Almaniyanın da birləşməsinə imkanlar yarandı. Beləliklə, 3 oktyabr 1990-cı ildə Almaniya konstitusiyasına əsasən, ADR-Qərbi Berlinin AFR-in tərkibinə daxil olması ilə vahid Almaniya Federativ Respublikasının yaradılmasına qərarı verildi. Proses 2 may 1989-cu ildən 15 mart 1991-ci ilə qədər davam etmişdir. Almaniyanın birləşdirilməsinin elan edildiyi gün Alman Birlik Günü elan edilmişdir. Birləşmə prosesinin bir parçası kimi Berlin şəhərinin şərq və qərb hissələri də bir şəhər halında birləşdirilmiş və sonda ölkənin paytaxtı olmuşdur. Almaniya Sosialist Birlik Partiyası tərəfindən idarə edilən Şərqi Almaniyanın hökuməti 2 may 1989-cu ildən etibarən sarsılmağa başlamışdı. Bu tarixdə Macarıstan Avstriya ilə olan sərhədini açmış və bu Dəmir Pərdədə "dəlik açılması" səbəb olmuşdu. Sərhəd hələ də qorunurdu, lakin Panavropa pikniki və Şərq blokuna məxsus olan ölkələrin qətiyyətsiz reaksiyası qarşısıalınmaz hərəkatın işə düşməsinə səbəb oldu. Bu, Şərqi Almaniyada yaşayan minlərlə almanın Macarıstan vasitəsi ilə Qərbi Almaniyaya mühacirət etməsinə yol açdı. 1989-cu il inqilablarının bir hissəsi olan Sülh inqilabı və şərqdə yaşayan almanların etirazları nəticəsində 1990-cı ilin 18 martında Almaniya Demokratik Respublikası ilk azad seçkilərə getməyə məcbur oldu və danışıqlar nəticəsində iki alman dövləti tərəfindən Birləşmə Müqaviləsi imzalandı. İki alman dövləti və ölkədə hərbi qüvvələri olan 4 dövlət arasında digər danışıqlar nəticəsində "İki üstəgəl dörd müqaviləsi" (Almaniya ilə bağlı son razılaşma müqaviləsi) adı ilə tanınan müqavilə imzalandı. 15 mart 1991-ci ildə imzalanmış müqavilə birləşmiş alman dövlətinin tam suverenliyinin tanınmasını əks etdirirdi. İkinci Dünya müharibəsindən sonra suverenliyi qalib dövlətlər tərəfindən müəyyən məsələlərdə məhdudlaşdırılmış və işğal zonalarına parçalanmış Almaniya bu müqavilə ilə məhdudiyyətlərin bir çoxunu ortadan qaldırdı, lakin ölkədəki Sovet ordusu yalnız 1994-cü ilin avqustunda ölkəni tərk etdi.

Göründüyü kimi, eyni xalqın yenidən birləşməsi çətin və ağır proseslərdən sonra baş vermişdir. İndi isə siyasətçilərin, xüsusilə də hakimiyyətdə olan faşist təfəkkürlü məmurların səhv və yanlış siyasət aparmaları nəticəsində ölkə yenidən parçalanma təhlükəsi ilə üzləşib. Saksoniyada hakim olan XDİ də bu ştatın baş naziri Maykl Kretsxmeri bildirib ki, Şərqi Almaniya vətəndaşları özlərini təhqir edilən insanlar olaraq hiss edirlər. Çünki Qərbi Almaniya şərqdə yaşayanlara ikinci sort vətəndaşlar kimi baxırlar. Onun sözlərinə görə, hakimiyyət daha çox Qərbi Almaniya vətəndaşlarına diqqət ayırır. Qərbi Almaniyada yaşayan insanların daha yaxşı, firavan, yeni iş yerlərinin yaradılması ilə məşğulluğunun təmin olunmasına diqqət ayrılır: "Təbii ki, bu səhv siyasətdir, yanlış ayrı seçkilikdir. Hökumət dərin kök salan böhranı aradan qaldırmasa o zaman Almaniya yenidən parçalana və ötən əsrin 90-cı illərinə qayıdış baş verə bilər".

### Türingiya və Saksoniyada kütləvi aksiyalara qərar verilib

Hadisələrin inkişafı onu deməyə əsas verir ki, F.Mertzi Maykl Kretsxmerinin arzu etdiyi problemlərin aradan qaldırılmasına nail ola bilməyəcək. Çünki böhran dərindir və problemləri aradan qaldırmaq mümkün deyil. Bu isə onu təsdiq edir ki, həqiqətən də Almaniyanın yenidən parçalanması qaçılmazdır. Ölkənin bir neçə əyalətində, xüsusi ilə də Türingiya və Saksoniyada hökumətin siyasətinə etiraz olaraq küçələri çıxıb, kütləvi aksiyalar keçirməyə qərar verməleri proqnozların reallaşma ərəfəsində olduğunu göstərir. Məlumatlara görə, aprelin sonlarından başlayaraq Türingiya və Saksoniyada müxtəlif şüarlarla aksiyalara start veriləcək. Düzdür, Almaniya hakimiyyətinə yaxın media orqanları aksiyanın arxasında ifrat radikal qüvvələrin dayandığını qeyd edir və aksiya təşkilatçılarının onların tapşırıqlarını yerinə yetirdiklərini vurğulayırlar.

Bütün hallarda hakimiyyət vəziyyəti həll etməyə cəhd etməkdənsə, vəzifə bölgüsü uğrunda çarpışmalar aparır. Mertzi seçkilərdən iki aya yaxın vaxt keçməsinə baxmayaraq nazirlər kabinetini tam formalaşdıra bilmir. Xristian Sosial İttifaqının təmsilçiləri Mertzidən onlara kabinetdə daha çox yer verilməsini tələb edirlər. Ziddiyyətlərin kəskinləşməsi F.Mertzə əlavə problemlər yaradıb. Çıxış yolu isə yoxdur. Çünki hakimiyyətdə yer almaq istəyən vəzifə hərisləri ölkənin maraqlarını deyil, öz şəxsi mənafeyni düşünür və tələblərindən geri çəkilmək istəmirlər. Bütün bunlar onu deməyə əsas verir ki, ölkədə hökm sürən acınacaqlı vəziyyət həqiqətdən də Almaniyanın parçalanmasına gətirib çıxaracaq. Əgər Almaniya parçalansa, heç şübhəsiz ki, Avropa İttifaqı da dağılacaq. Ən azı ona görə ki, hazırkı mərhələdə Almaniya Avropa İttifaqında əsas çəkiyə və gücə malik dövlətdir. Almaniya mövcud deyilsə, deməli, Avropa İttifaqı da ola bilməz.

**İLHAM ƏLİYEV**

# AZƏRBAYCAN:
## Heydər Əliyevin həyat amalının təntənəsi

***Dövlətçilik salnaməsində silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.***

Heydər Əliyev ona görə Azərbaycanın rəmzinə çevrilmişdir ki, öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.







### Qeyri-adi idarəçilik bacarığı və polad iradə

Tarixi faktlara nəzər salarkən görmək olur ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Ümummilli Lider özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Xalqın taleyinin bu mərhələsində - azadlıq və müstəqillik duyğularının artdığı o illərdə Ulu Öndər həmin duyğuları alovlandırdı ki, bu da illər sonra müstəqilliyimizin bərpası ilə nəticələndi.

Hələ 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərkən ölkənin ictimai-siyasi həyatında anarxiya və hakimiyyətdaxili intriqalar baş alıb gedirdi. Azərbaycan sosial-iqtisadi cəhətdən durğunluğun və dərin böhranın yaşandığı geridə qalmış ölkə idi.

Heydər Əliyev dövlət təhlükəsizliyi sistemində işlədiyi ilk gündən əldə etdiyi imkandan istifadə edib böyük vətənpərvərlik və uzaqgörənlik ruhunda öz doğma xalqına xidmət etmişdir. DTK-nın rəhbər strukturlarındakı fəaliyyəti dövründə bu orqanın azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərən Ümummilli Liderimiz respublikaya rəhbərliyə başlayan kimi qısa müddətdə idarəçilik sistemini xeyli möhkəmlətmiş, sosial-iqtisadi tədbirlər həyata keçirmiş, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başlamışdır. Aparılan ardıcıl mübarizə nəticəsində qısa müddətdə Azərbaycanda əlverişli sosial-iqtisadi və mənəvi-siyasi şərait yaradılmışdır.



1970-1980-ci illərdə neft-qaz hasilatı sənayesinə və neftayırma zavodlarının yenidən qurulmasına 4 milyard manatdan çox vəsait qoyulmuşdur. Nəticədə, 1980-ci illərin sonunda Azərbaycan keçmiş SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə iki hissəsini verir, neft maşınqayırma sahəsində ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. 1969-1982-ci illərdə 213 iri sənaye müəssisəsi tikilmiş, sənaye məhsulu istehsalı 2,7 dəfə artaraq əvvəlki 50 ildə olduğu qədər - 101,5 milyard manatlıq məhsul istehsal edilmiş, Azərbaycan sənaye məhsulunun istehsal artımına görə SSRİ-də birinci yerə çıxmışdı. Bakı SSRİ-nin əsas sənaye mərkəzlərindən və beş böyük şəhərindən birinə çevrilmişdi. Azərbaycanın 120-dək müəssisəsində istehsal olunan 350 növ məhsul dünyanın 80 ölkəsinə satılırdı. İxracla idxal arasında 1,5-2 milyard manatlıq müsbət saldo yaranmışdı.

Meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsaitin məbləği (2 milyard manat) əvvəlki 50 il ərzində bu sahəyə qoyulan vəsaitdən 2,5 dəfə çox olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmiş, məhsul artımı 11,1 milyard manata çatmışdı. Bu dövrdə 7,7 min kilometr şose, 260 kilometr dəmir yolları çəkilmişdi. 1985-ci ildə Bakı limanından dünyanın 120 limanına gəmilər səfər edir, paytaxtdan respublikanın 12, SSRİ-nin 80 şəhərinə təyyarələr uçurdu. Bakı metropoliteninin 8 yeni stansiyası istismara verilmişdi.

1969-1982-ci illərdə 18,5 milyon kvadratmetr mənzil sahəsi (376,1 min yeni mənzil) istifadəyə verilmiş, 2,2 milyondan çox adam, yəni respublikanın hər üç sakinindən biri yeni evdə məskunlaşmışdı. 1970-1982-ci illərdə iqtisadiyyatın inkişafına 23,9 milyard manat vəsait qoyulmuşdu ki, bu da əvvəlki 50 ildəkindən 1,4 dəfə çox idi. Bu zaman milli gəlirin yalnız artım hissəsi 5 milyard 370 milyon manat təşkil etmiş, onun adambaşına düşən hissəsi 2 dəfə artmış, 633 min yeni iş yeri yaradılmışdı.

Məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, 6 yeni ali məktəb yaradılmışdı. 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 15 mindən artıq azərbaycanlı gənc təhsil alaraq yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmışdı. 1971-ci il iyul ayının 28-də Cəmşid Naxçıvanski adına hərbi məktəb açılmış, 1970-80-ci illərdə SSRİ-nin ali hərbi məktəblərində iki mindən çox azərbaycanlı zabit hazırlanmışdı. Qısa müddətdə SSRİ müdafiə sənayesinin Azərbaycanda on bir böyük zavodu tikilmişdi.

1970-1980-ci illərdə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 44 muzey, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi. 1980-ci ilin sonunda respublikada artıq ümumi kitab fondu 31,7 milyon nüsxə olan 3858 kütləvi kitabxana, 3212 klub və mədəniyyət evi, 2300 kino qurğusu var idi. 21 min yerlik xəstəxana və poliklinikalar istifadəyə verilmişdi.

Ümummilli Liderimiz Heydər Əliyevin deyirdi: "Millətin milliliyini saxlayan onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi və inkişaf etməsi də bizim nailiyyətlərimizdən biridir. Bu təkcə dil məsələsi deyil, həm də Azərbaycançılıq məsələsidir". 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin ali səviyyədə rəsmi dil statusu alması, oncildlik Azərbaycan Sovet Ensiklopediyasının, üçcildlik "Müasir Azərbaycan dili" dərsliyinin işıq üzü görməsi, "Türkologiya" jurnalının nəşrə başlaması, Azərbaycan ziyalılarının imperiyanın təqiblərindən qorunması, görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət mükafatlarının, fəxri adların verilməsi, onların yubileylərinin keçirilməsi, abidələrinin qoyulması, milli ruhlu tarixi filmlərin çəkilişi, mədəniyyət kollektivlərinin və rəssamların qastrol və sərgilərinin təşkili və sair bu kimi faktlar 1970-80-ci illərdə milli-mənəvi həyatın və milli özünüdərk prosesinin sürətli dirçəlişini səciyyələndirirdi.

Beləliklə, Ümummilli Liderimizin sözləri ilə desək: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".



## Azərbaycanda Yeni Azərbaycan

Bütün bu göstəricilər Ulu Öndərin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə də daha fərqli bir şəkildə əldə olunmuşdur. Belə ki, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan yenidən qurulmuş, Azərbaycanda Yeni Azərbaycan yaradılmışdır.

Məlumdur ki, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyət dövründəki kimi olacaqdı.





Bəli, böyük çətinliklə bərpa olunan müstəqilliyimiz Ulu Öndərin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Ulu Öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

Heydər Əliyev əsl azərbaycanlı, xalqını canından artıq sevən, vətənpərvər, həyatının sonunadək bu xalqın, bu millətin yolunda cəfa çəkən böyük şəxsiyyətdir. Elə buna görə də xalq Onu özünə Ümummilli Lider seçdi. Taleyini Ona tapşırdı. Müstəqilliyini Ona etibar etdi. Beləliklə də, müstəqilliyimiz təhlükədən, itirilməkdən xilas oldu. Torpaqlarımızın daha da geniş miqyasda itirilməsinin qarşısı alındı. Ölkəmiz dünyada tanındı, dünya dövlətləri ilə iqtisadi əlaqələr quruldu. 70 illik imperiya məngənəsindən qurtulan, bütün sahələrdə tənəzzülə uğrayan Azərbaycanda yeni bir Azərbaycan quruldu. Azərbaycan, bütövlükdə, Ulu Öndərimizin əsərinə çevrildi.

## Ötən 22 il: Ümummilli Liderin müəyyən etdiyi strategiya

Ulu Öndərin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və müasir dövrə uyğunlaşdıran Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı Lider olduğu bir daha təsdiqini tapır. Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi aləmində özünəməxsus yeri ilə seçilir. Bütün dünya dövlətləri ölkəmizin başçısı ilə hesablaşır, ona hörmət və ehtiramla yanaşır.

2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciət də təkcə Ulu Öndərin deyil, bütövlükdə, Azərbaycan xalqının cənab İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu Öndər bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Zaman və tarix sübut edib ki, Ulu Öndərimiz siyasətdə heç zaman yanılmayıb. Ötən 22 ildə bunun bir daha şahidi olduq. Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə şahid olduq. Sıravi vətəndaşdan tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan böyüyə hər kəsə qayğıda, ehtiramda gördük. Ölkə rəhbərinin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına qayğısında gördük. Ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsində, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsində gördük.

Bəli, ordu quruculuğunu xüsusilə vurğulamalıyıq. Çünki ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayıb. Onları ən çox düşündürən yurd yerlərinə qovuşmaq idi. Nə qədər inkişaf etmiş bir ölkədə yaşasalar da, hərtərəfli qayğı ilə əhatə olunsalar da, qaçqınlıq və köçkünlük acısı, yurd həsrəti onları tərk etmirdi. Onlar öz torpaqlarını istəyirdi. Qarabağ Azərbaycanın yarası idi. Bu yara sağalardısa, Azərbaycan tam ola bilərdi. Bütün bunlar isə dövlətimizin başçısının daim diqqətində olan məsələlər idi.

## Ulu Öndərin arzuları reallaşdı

"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!",- deyən Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi. Bu gün müstəqil Azərbaycan etibarlı əllərdədir. 1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizdir. O mənada ki, xalq çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır. Xalq bir gün öz əzəli torpaqlarını da geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi Liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin",- deyən dövlət başçısının əzmini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi. 10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixinə yazdığı yeni salnamə oldu. 2023-cü ilin 20 sentyabrında həyata keçirilən antiterror tədbirləri isə ərazi bütövlüyümüzün tam bərpası ilə nəticələndi.

Cənab Prezidentimizin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu isə ölkəmizdə hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır. Tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri və ölkəmizin bugünkü inkişafı ötən 22 ilin hər anında Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, bu gün bütün dünyanın diqqətini özünə yönəldən məqamlardır. Azərbaycanın güclü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidliyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir. Bəli, qürur duyuruq ki, Ulu Öndərimizin siyasi yolu uğurla davam etdirilir.

***Mətanət Məmmədova***

# Azərbaycan-Çin münasibətləri uğurla inkişaf edir

**Azərbaycanın malik olduğu multiregional xarici siyasət kursunda müxtəlif inkişaf səviyyəsinə malik olan dövlətlərlə sıx əməkdaşlıq əlaqələri qurmağa nail olması ölkəmizin böyük üstünlüyüdür. Prezident cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq bu əlaqələr dövlətlərin böyüklüyündən və yaxud kiçikliyindən asılı olmayaraq, qarşılıqlı maraqlar və bir-birinə hörmət prinsipi əsasında inkişaf etdirilir. Azərbaycan-Çin münasibətləri buna yaxşı nümunədir.**





Azərbaycan-Çin əlaqələrinin tarixi qədim "İpək Yolu"na qədər uzanır. Hələ 2500 il bundan öncə qədim "İpək Yolu" vasitəsilə xalqlarımız arasında ticari və mədəni əlaqələr mövcud olub. Azərbaycanın müstəqilliyinin 1991-ci ilin dekabrın 27-də Çin Xalq Respublikası tərəfindən tanınması və 1992-ci il 2 aprel tarixində ikitərəfli diplomatik münasibətlərin qurulması ilə Azərbaycan-Çin münasibətləri yeni mərhələyə qədəm qoyub. 1992-ci ildə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi, 3 sentyabr 1993-cü ildə isə Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı Səfirliyi açılıb. Azərbaycanın müstəqilliyi illərində ikitərəfli münasibətlər yüksək dinamika ilə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Təbii ki, bu dövrdə Azərbaycan-Çin münasibətlərinin yaranmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin müstəsna rolu olub.

Ənənəvi olaraq dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında liderlərin şəxsi münasibətləri mühüm rol oynayıb. Dünyada liderlərin dostluq əlaqələrinin töhfələri sayəsində yaxşı dövlətlərarası münasibətlər nümunəsindən söhbət açdıqda Azərbaycan-Çin əməkdaşlığını da qeyd edə bilərik. Dövlət başçılarının üzbəüz görüşləri, telefon danışıqları, məktub mübadiləsi, beynəlxalq tədbirlərdəki təmaslar əsasında formalaşmış sıx dialoqu, qarşılıqlı hörmət və etimadı Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə dərinləşməsində əvəzsiz rol oynayır. Dövlətimizin başçısı Sədr Si Cinpinin dəvəti ilə 2014-cü ildə Çində işgüzar, 2015-ci ildə isə dövlət səfərində olub. 2019-cu ildə isə Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq forumunda Cənubi Qafqazdan olan yeganə dövlət başçısı məhz Prezident İlham Əliyev olub. Çin lideri Si Cinpin özünün əsas qlobal təşəbbüsü olan "Bir kəmər, bir yol" strategiyası üzrə Azərbaycana yüksək dəyər verməsi təkcə ölkəmizin əlverişli coğrafi mövqeyi, tranzit potensialı ilə deyil, həm də dövlətimizin başçısına bir lider kimi olan etimadı ilə bağlıdır.

Azərbaycanla Çin arasında nəqliyyat sektorunda əməkdaşlığın genişlənməsi diqqətəlayiq haldır. Çində Azərbaycan üzərindən keçən dəhlizlərin önəmi yüksək dəyərləndirilir. Bu ölkə 10 il bundan əvvəl Avrasiyada infrastrukturun yaradılmasına və qarşılıqlı əlaqələrin qurulmasına yönələn "Bir kəmər, bir yol" layihəsini elan edib. Strategiya iki əsas inkişaf istiqamətini nəzərdə tutur: "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu". Burada söhbət malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasından gedir. Azərbaycan Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünə Qafqaz regionunda dəstək verən ilk ölkə olub. Prezident İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə rəsmi səfəri çərçivəsində "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu" imzalanıb. 2019-cu il yanvarın 22-də isə Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiya keçirilib. Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sessiyada iştirak ediblər. Hazırda respublikamız yaratdığı müasir infrastrukturla "Bir kəmər, bir yol" layihəsinin, eləcə də Orta Dəhliz strategiyasının həyata keçirilməsində logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır.

21 aprel 2025-ci il tarixində Çin Xalq Respublikasına rəsmi dövlət səfəri ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinin Sinxua agentliyinə məxsusi müsahibə verib. İki dost dövlət arasında münasibətlərin bir çox istiqamətlərinə toxunan dövlət başçısı qeyd edib ki, Çin dünyanın ən çox dinamik inkişaf edən ölkələrindən biridir. ÇXR-in Sədri Si Cinpinin qətiyyətli və müdrik rəhbərliyi altında Çinin bütün sahələrdə qazandığı nailiyyətlər və uğurlar onu dünyanın ən güclü və qabaqcıl ölkələri sırasına çıxardı, ölkənin beynəlxalq arenada mövqelərini daha da möhkəmləndirdi.

Qeyd edilməlidir ki, son illərdə iki ölkə arasında humanitar mübadilələr, xüsusən dillərin tədrisi və turizm sahələri inkişaf edir. Azərbaycan mənbələrinin məlumatına görə, ötən il Azərbaycana səyahət edən çinli turistlərin sayı əvvəlki illə müqayisədə iki dəfə artıb. Azərbaycan və Çinin ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı əldə edən ölkələrimizin vətəndaşlarının sayı ildən-ilə durmadan artır. Konfutsi İnstitutunun tərəfdaşları olan Azərbaycanın bir sıra ali təhsil müəssisələrində Çin dili tədris olunur. Sevindirici haldır ki, son illərdə Çində də Azərbaycan dilinin və mədəniyyətinin öyrənilməsi mərkəzləri fəaliyyətə başlayıb, müvafiq kafedra yaradılıb. İki ölkənin universitetləri arasında məhsuldar əməkdaşlıq həyata keçirilir, zəruri müqavilə-hüquqi baza yaradılır. Çin və Azərbaycan dillərinin təhsil müəssisələrində tədrisinin, müəllimlər arasında mübadilənin və mütəxəssislər hazırlanmasının dövlət tərəfindən dəstəklənməsi dövlətlərin müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətinin səmərəliliyinə imkan yaradacaq, iki xalqın yaxınlaşmasına və qarşılıqlı mədəni zənginləşməsinə xidmət edəcək. Ötən il Azərbaycan turizmin inkişafı və işgüzar fəaliyyətin artırılması məqsədilə Çin vətəndaşlarına münasibətdə vizasız rejimi birtərəfli qaydada tətbiq etdi. Ölkələrimizin vətəndaşlarının vizasız gediş-gəlişinin asanlaşdırılması turist axınının artmasına kömək edəcək və bununla da iqtisadi, humanitar və mədəni əlaqələr genişlənəcək.

***Elxan Quliyev,***
***Əməkdar müəllim***



# Hər yerdə yandırma!

MƏTANƏT

***Tütün çəkənlərin sayının artım dinamikası narahatlıq doğurur. Bununla yanaşı, ictimai yerlərdə siqaret çəkildikdə ətrafdakılar özgəsinin siqaret tüstüsünü udmaqla passiv siqaret çəkməyə məruz qalırlar.***

Çox təəssüf ki, siqaret çəkməyənlər siqaret çəkənlərin qurbanı olurlar. Onların tüstüsündə boğulub zəhərlənirlər. Belə ki, Azərbaycanda siqaret çəkməyənlərin 29% evdə, 41% isə qapalı ictimai yerlərdə tütünün təsirinə məruz qalır:

Böyüklər arasında passiv tütünçəkmə göstəriciləri son illər azaldığına baxmayaraq, hələ də yüksək olaraq qalır. Araşdırmalara görə kişilərin 28% iş yerlərində, qadınların 23% evdə tütün tüstünün təsirinə məruz qalır.

Bəzən siqareti tərgitmək istəyən insanlara da rast gəlirik. Onlar elektron siqaretə keçməklə siqareti tərgidəcəklərini zənn edirlər. Lakin mütəxəssis həkimlər deyir ki, elektron siqaretdən istifadə etmək ən azı adi siqaret qədər təhlükəlidir. Siqaretin insan orqanizmi üçün ən təhlükəli tərəfi onun tərkibindəki qətrandır. Həkimlər də ən əsas buna görə insanlara siqaretdən imtina etməni məsləhət görür. Nikotin aludəçiləri isə çıxış yolunu elektron siqaretdə görür. Amma yanılırlar, siqaretin tərkibində olanlar demək olar ki, elektron siqaretdə də mövcuddur və bu, insan sağlamlığı üçün birbaşa təhlükədir.

Bu məsələlərin ciddiliyi nəzərə alınaraq ölkəmizdə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun da qüvvəyə minib. Qanunu pozanların 30 manatdan 1000 manata qədər cərimə olunması müəyyənləşdirilib. Qanuna əsasən, tütün məmulatlarından (siqaret), sulu qəlyan və elektron siqaretdən istifadə müəyyən yerlərdə qadağan olunub. Hələ də aramızda bu qanuna zidd gedən insanlar var ki, onlarla hər kəs qarşılaşır.

Siqaretini harada gəldi yandıranların sayı-hesabı yoxdur. Küçədə, dayanacaqda, ictimai nəqliyyatda, mağazada, iş yerində-utanmadan, çəkinmədən hər yerdə. Mədəniyyətsizcəsinə, qadın-kişi, uşaq, xəstə, qoca-cavan tanımadan, məhəl qoymadan siqaretə od vuranlar var.

Çox təəssüf, onlar arasında sürücülər də var ki, bəzən taksidə utanmazcasına səndən "siqaret çəkə bilərəmmi?",- deyə soruşurlar...

Görəsən bu siqaret nə qədər vacib tələbatdır ki, 10 dəqiqəlik yolda sürücü onsuz narahat olur. Bilə-bilə ki, olmaz, utanmadan icazə də istəyir. Çəkir və maşının pəncərəsindən guya tüstünü bayıra ötürür. Lakin təəssüf ki, o tüstü içəridə əyləşən sərnişinin sürətlə bütün bədəninə yayılır.

Və olsun iş yeri, burada siqaret çəkən insanlar var. Ətrafı zəhərləyən, öz tamahının tüstüsünə bürüyənlər var. Sanki elə belə də olmalı imiş kimi düşüncəsi ilə iş yoldaşlarını narahat edənlər var.

Dayanacaqda dayanırsan, yanındakının siqaretinin tüstüsü az qalır səni boğsun. Lakin özünü elə aparır ki, elə belə də olmalıdır, pis təsir edir, çəkil o yana...

Nə qədər ki, hələ də qanundan xəbərsiz insanlar var, onlar cəmiyyət arasında özlərini lazımi səviyyədə apara bilməyəcək və bizlər də passiv siqaret çəkən olaraq qalacağıq. Lakin hər kəs tək özünü deyil, ailəsini, iş, yol yoldaşını, qonşusunu, qohumunu, dostunu, xüsusilə də övladını düşünməlidir. Dərk etməyə çalışmalıdır ki, siqareti hər yerdə yandırmaq olmaz. Axı onu yandıranda ətrafda olanlar da yanır...

# Böyük QAYIDIŞ: Həsənriz kəndinə növbəti köç

***İşğaldan azad olunmuş torpaqlara keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Daha bir köç karvanı növbəti dəfə Ağdərə rayonunun Həsənriz kəndinə çatıb. Bu mərhələdə Həsənriz kəndinə 20 ailə - 68 nəfər köçürülüb. Həsənrizə köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.***

Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi, qəbul olunmuş digər sənədlər və həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edərək dövlətimizin Qarabağın və Şərqi Zəngəzurun dirçəlişində, əhalinin dayanıqlı məskunlaşmasında və davamlı iqtisadi inkişafın təmin olunmasında məqsədyönlülüyün göstəricisidir.

Ağdərə rayonunun yenidən qurulan Həsənriz kəndi də daimi sakinlərini mərhələli şəkildə qəbul edir. Cari ilin mart ayında dövlət başçısı və birinci xanım Həsənrizə köçən sakinlərlə görüşərək onlarla birlikdə bu sevinci bölüşdülər. Görüşdə, həmçinin fərdi evlərin və infrastrukturun bərpası istiqamətində həyata keçirilən mühüm işlərə baxış keçirildi. Ölkə başçısı Həsənrizin doğma sakinləri ilə birgə baharın ilk günlərini birlikdə keçirdi, bayram tonqalını alovlandırdı. Ağdərə rayonunun Həsənriz kəndinə ilk mərhələdə kəndə 25 ailə - 91 nəfər köçürülmüşdü. Hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 40 mindən artıq insan yaşayır.







## BÖYÜK TİKİNTİ MEYDANÇASI

Azərbaycan Prezidenti İlham Əliyev bildirdiyi kimi, Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Azərbaycanın yaratdığı tarixi reallıqların məntiqi nəticəsi olaraq ölkəmiz yeni mərhələni yaşayır. Azərbaycanın öz suverenliyinin bərpası, Qarabağın azad olunması, eləcə də Qarabağdan separatizmin təmizlənməsi yeni imkanlar yaratmış oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi. 2023-cü ilin sentyabrın 19-da başlayan və təqribən 24 saat davam edən lokal antiterror tədbirləri Azərbaycan tarixinin şanlı səhifələrindəndir. Vətən müharibəsindəki tarixi Qələbəmizdən və Ermənistanın kapitulyasiyasından sonra Azərbaycan dövləti humanizm göstərərək, ölkəmizin erməni əhalisi ilə reinteqrasiya prosesinə start verdi. Vətən müharibəsində qəhrəmanlıq göstərən Azərbaycan Ordusu bu dəfə də yüksək peşəkarlıq nümayiş etdirərək, Ali Baş Komandanın onların qarşısında qoyduğu tapşırığı cəmi 24 saatda yerinə yetirdi. Nəticə olaraq separatçılar ağ bayraq qaldırdı və dövlətimiz qarşısına qoyduğu bütün hədəflərə çatdı. İndi bütövlükdə bölgədə sülh və inkişaf üçün gözəl şərait yaranıb. 30 ilə yaxın işğal altında olan və 44 günlük Vətən müharibəsi zamanı azad olunan ərazilərimiz hər kəsə qürur yaşatdı.



Böyük Zəfərdən sonra bölgədə yeni reallıq yaranıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı quruculuq işləri bir daha göstərir ki, bu torpaqların əsl sahibi azərbaycanlılardır. Tarixi qələbədən sonra Azərbaycan ermənilər tərəfindən dağıdılmış on min kvadratkilometr bir xarabalıqla üz-üzə qaldı. Düşmən 30 il ərzində Qarabağda və Şərqi Zəngəzurda bütün həyat işartılarını məhv etmişdi, təbiətə qəsdən və bilərəkdən ziyan vurulmuşdu, evlər, yollar, ictimai binalar, zavod və fabriklər, istehsal sahələri, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, muzeylər, kitabxanalar dağıdılmışdı. Hazırda azad edilən ərazilərdə yol infrastrukturu qurulur, istifadəyə verilir, körpülər tikilir. Qələbə və Zəfər yolları Qarabağın işğaldan azad edilmiş yüzlərlə kənd və şəhərinə yenidən həyat gətirir.

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR YENİ İNKİŞAF DÖVRÜNDƏ

Qlobal iqtisadiyyatda "yaşıllaşma və karbonsuzlaşma" meylləri qeyri-resurs iqtisadiyyatının inkişafı üçün imkanlar yaradır. Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzurun əhəmiyyətli potensialı var və bu, xarici investorların marağını cəlb edir. Artıq soydaşlarımız azad edilmiş ərazilərdə salınan yeni yaşayış məskənlərində məskunlaşmağa başlayıblar. "Ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi bölgədə rahat və müasir həyat şəraitini təmin edir. Bu gün işğaldan azad olunan Şuşa, Zəngilan, Ağdam kimi ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri görülür və müasir tələblərə uyğun olaraq qurulur. Eyni zamanda, Kəlbəcər kimi ucqar rayonlar da diqqətdədən kənarda qalmayıb. Pilot layihələr kimi Kəlbəcər rayonunda arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlərə lazımı şərait yaradılıb. Müharibədən dörd ildən artıq vaxt ötməsinə baxmayaraq, qətiyyətlə deyə bilərik ki, bu gün işğaldan azad edilmiş ərazilərimizdə misli görünməmiş bərpa və quruculuq işləri aparılır. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl görülən işlər çərçivəsində yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafı üçün möhkəm təməl yaradıb.

Bugünkü Azərbaycan reallıqları deməyə əsas verir ki, sabitlik, təhlükəsizlik və inkişaf 21 illik tariximizi xarakterizə edən əsas amillərdir. 30 ilə yaxın işğalda olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad olundu. Bu gün Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf dövrünü yaşayır. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Əcnəbi eskpert: İlham Əliyev Çinə səfəri ilə növbəti dəfə gələcəyə stavka etdi

## Mixail Belyayev: "Azərbaycan beynəlxalq mövqelərini möhkəmləndirir, təkcə regional deyil, daha qlobal proseslərin fəal iştirakçısı və liderlərindən biri olduğunu təsdiqləyir"

***Azərbaycan Prezidenti İlham Əliyevin Çinə səfəri dünya mediasında və ekspert icması tərəfindən geniş təhlil olunur. Tanınmış rusiyalı politoloq Mixail Belyayev də "Moskva-Baku" portalı üçün şərhində Azərbaycan prezidentinin Çinə səfərini təhlil edib. Ekspertin şərhini oxucularımıza təqdim edirik.***

***- Mixail Kimoviç, Azərbaycan Prezidentinin Çinə ən yüksək səviyyəli dövlət səfəri geosiyasi və geoiqtisadi proseslər baxımından nə deməkdir? Ötən il Bakı və Pekin arasında strateji tərəfdaşlığın yaradılması haqqında Bəyannamə imzalanıb, bu, ciddi addımdır...***

-Azərbaycan Prezidenti İlham Əliyevin Çinə bu dövlət səfəri həm geosiyasi, həm də geoiqtisadi baxımdan son dərəcə əhəmiyyətlidir. Qeyd etdiyiniz kimi, ötən il Azərbaycan və Çin arasında Strateji Tərəfdaşlığın yaradılması haqqında Bəyannamə imzalanıb. Bu, Azərbaycanın xarici siyasətində son dərəcə mühüm nailiyyətdir, xüsusən də qlobal Cənub ölkələrinin yeni dünya nizamının qurulmasından danışarkən diqqət mərkəzində olduğu indiki geosiyasi proseslər fonunda.

Məlum olduğu kimi, Qərbdə Çin dünyanın ən güclü dövlətlərindən biri və təhlükə kimi qəbul edilir. Çin hazırda qlobal diqqət mərkəzindədir- onunla əlaqələr Rusiya, MDB ölkələri, xüsusən də Mərkəzi Asiya üçün son dərəcə vacibdir və Qərbin diqqət mərkəzindədir. Tramp Çin də daxil olmaqla ölkələrə son dərəcə yüksək tariflər tətbiq edib və bu, yalnız xarici qüvvələrin bölgəyə marağını daha da artırır.

Azərbaycanın son illər ərzində çox fəal şəkildə Pekinlə münasibətləri yeni, strateji səviyyəyə qaldırmağa nail olması, bu əlaqələri prioritet istiqamətlərdən birinə çevirməsi bir daha Azərbaycanın xarici siyasətinin müdrikliyini, düzgün hesablama və uzaqgörənliyini əks etdirir. Deməli olar ki, Azərbaycan və Çin arasında münasibətlər hazırda



ikitərəfli münasibətlər tarixinin ən yüksək mərhələsindədir. Və bu münasibətlərin potensialı böyükdür, lakin hazırda bu, tədricən, lakin yaxşı templə üzə çıxır.

Bu yolda görüləsi işlər çoxdur. Si Cinpinin Azərbaycan Prezidentini Çinə dövlət səfərinə dəvət etməsi çox əlamətdar və əhəmiyyətlidir və Azərbaycan Respublikasının da Pekinin maraq dairəsində olduğunu göstərir. Azərbaycan üçün isə belə bir səfər, mübaliğəsiz, ölkənin statusunu vurğulayan genişmiqyaslı, çox mühüm hadisədir. Azərbaycanın da Çinə təklif edəcəyi şeylər şübhəsiz ki, var.

Şərqlə Qərb arasında yerləşən Azərbaycanın unikal coğrafi mövqeyinə görə bunlar ilk növbədə nəqliyyat marşrutlarıdır. Azərbaycan artıq Çinin "Bir kəmər, bir yol" layihəsində iştirak edir və bu layihəni dəstəkləyən ilk ölkələrdən biri olub. Bu, həm də Orta Dəhlizdir, Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə gedən beynəlxalq nəqliyyat dəhlizidir.

Bu gün Azərbaycan Çinlə alternativ enerji sahəsində fəal əməkdaşlıq edir; Bakının bu sahədə əsas tərəfdaşlarından biridir. Biz başa düşməliyik ki, Azərbaycan və Çin üçün alternativ enerji boş oyun deyil, Azərbaycan Respublikasının təbii sərvətlərini, iqlim xüsusiyyətlərini- küləyin, günəşin potensialını və s. nəzərə almaqla həqiqətən böyük potensiala malik istiqamətdir. Qarşılıqlı əlaqə həm də ən son texnologiyalardan istifadə etməklə həyata keçirilir. Təbii ki, Azərbaycan da Çin kimi qarşılıqlı ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artmasında maraqlıdır. Bu, həm də yaxın gələcək üçün prioritet hədəflərdən biridir.

Kağızlar kağızdır, bəyannamələr bəyannamədir, lakin ölkə rəhbərləri arasında şəxsi təmaslarda ciddi razılaşmalar əldə edilir. İlham Əliyevin Çinə dövlət səfəri isə iki ölkə arasında münasibətləri möhkəmləndirən və iki ölkə arasında mövcud olan münasibətlərin səviyyəsini bütün dünyaya nümayiş etdirən əlamətdar hadisədir. Və bayaq qeyd etdiyim kimi, bu gün Çin qlobal proseslərin diqqət mərkəzindədir.

Bundan başqa, Azərbaycan və Çin bu gün də qlobal proseslərin diqqət mərkəzində olan Şanxay Əməkdaşlıq Təşkilatında əməkdaşlıq edir.

Azərbaycan Çinlə yaxınlaşmaqla beynəlxalq mövqelərini bir daha möhkəmləndirir, dövrün tendensiyalarını dərk etdiyini və təkcə regional deyil, daha qlobal proseslərin fəal iştirakçısı, özünü qlobal Cənubun, Qoşulmama Hərəkatının liderlərindən biri, qlobal proseslərdə fəal iştirak edən liderlərdən biri kimi yerləşdirən dövlət olduğunu təsdiqləyir.

Həm Azərbaycan, həm də Çin daha ədalətli dünya nizamının ümumi məntiqinə sadiqdirlər; Əbəs yerə deyil ki, Strateji Tərəfdaşlıq haqqında Bəyannamədə Pekin və Bakının beynəlxalq platformalarda ümumi maraqları dəstəkləməsi haqqında tezis var.

Gördüyümüz kimi, geosiyasi kataklizmlər fonunda Azərbaycan son illər fövqəldövlətlərlə əlaqələri gücləndirir. 2022-ci ildə Azərbaycan Rusiya ilə Müttəfiq Əməkdaşlıq Bəyannaməsini imzalayıb. 2024-cü ildə Azərbaycan Çinlə Strateji Tərəfdaşlıq Bəyannaməsini imzalayıb. Obyektiv olaraq demək yerinə düşər ki, Azərbaycana müdrik insan rəhbərlik edir. Azərbaycan son illər beynəlxalq aləmdə danılmaz irəliləyiş əldə edib. Hər bir dövlətə, xüsusən də bu ölçüdə olan birinə bu imkan verilmir. Həm də söhbət resurslardan getmir, onları necə idarə etməyi hamı bilmir, əksinə, müdrik və uzaqgörən siyasət, hər şeyi əvvəlcədən hesablamaq və dövrün tendensiyalarına cavab vermək, imkanları görmək və onlardan istifadə etmək bacarığıdır.

İlham Əliyev Çinə səfəri ilə növbəti dəfə Azərbaycanın gələcəyinə və dünya arenasında mövqelərinin möhkəmlənməsinə ağıllı stavka etdi. Bu səfər isə şübhəsiz ki, diqqət mərkəzində olacaq və Azərbaycan Respublikasının növbəti irəliləyişi və uğurudur.

***Tərcümə - Elçin Bayramlı***

# "Ulu Öndər Heydər Əliyev konstitusiyamızın memarıdır"

***Aprelin 23-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində YAP Qəbələ rayon təşkilatı tərəfindən "Ulu Öndər Heydər Əliyev konstitusiyamızın memarıdır" mövzusunda tədbir keçirilib. SİA xəbər verir ki, YAP Qəbələ rayon təşkilatının qərargahında keçirilən tədbirdə öncə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçərək şəhadətə yüksəlmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***





Tədbiri giriş sözü ilə açan YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov Prezident İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsinin vacibliyindən danışıb. O, qeyd edib ki, Azərbaycan Respublikasının Konstitusiyası müstəqil dövlətçiliyimizin əsasını qoyan Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və uzaqgörənliyi nəticəsində formalaşmış fundamental bir sənəddir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində torpaqlarımızın işğaldan azad olunması həm möhtəşəm hərbi nailiyyət, həm də siyasi və diplomatik zəfər olmaqla Konstitusiyamızın ruhuna və məqsədlərinə uyğun şəkildə dövlətimizin tam suverenliyinin təmininə xidmət etmişdir. Daha sonra partiya sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri təqdim edilib.

Yap Qəbələ rayon təşkilatının sədr müavini Anar Şirinov qeyd edib ki, dövlətimizin müstəqillik tarixinin ən mühüm hadisələrindən olan Əsas Qanun məhz Ulu Öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində hazırlanıb. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu vasitəsilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında ölkəmizdə müasir cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edilib.

Çıxış edən partiya fəalı Esmira Əsədova bildirib ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması Azərbaycanın dövlətçilik ənənələrini daha da möhkəmləndirmək, xalqın hüquq və azadlıqlarının təmin olunmasına dair öhdəlikləri vurğulamaq məqsədi daşıyır. Bu qərar, həmçinin milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir addımdır.

Partiya fəalı Fatimə Tağıyeva çıxışında qeyd edib ki, 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfər yalnız hərbi deyil, həm də hüquqi və siyasi baxımdan suverenlik dəyərlərinin möhkəmləndirilməsi anlamına gəlir. Xalqımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyünün, dövlət suverenliyinin və ölkənin bütün ərazilərində Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasının qürurverici təntənəsini yaşayır. Daha sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.



# “Yaşıl Azərbaycan”ın Naxçıvan modeli

***Ötən əsrin sonlarından etibarən dünya ekoloji təhlükənin fərqindədir, insanlar və dövlətlər böyük fəlakətin qarşısını almağın yollarını axtarır, cəhdlər edir. Ekoloji balansı pozan amillər çoxdur, kənd təsərrüfatında istifadə edilən kimyəvi maddələr, avtomobillərin sürətlə artması, nəzarətsiz uzbanizasiya, meşələrin məhv edilməsi kimi vəziyyət də bu amillərdəndir. Daha aydın desək, özülündə insan fəaliyyəti dayanan bir sıra problemlər ümumi evimizi - dünyanı təhlükəyə doğru aparır.***

Azərbaycan bu istiqamətdə öz məsuliyyətini bilən ölkələrdəndir. Dövlətimizin yaşıl dünya naminə atdığı bir çox addım dünyanın, dolayısı ilə öz ölkəmizin rifahı naminə qiymətli davranışdır. Beynəlxalq İqlim Konfransına ev sahibi olması, yaşıl enerjidə qət etdiyi yol, təbiətin mühavizəsi üçün həyata keçirdiyi layihələr Azərbaycanı dünyada ekologiyanın dostu kimi tanıdıb. Azərbaycanın yaşıl enerji siyasətində əhəmiyyətli payı olan Naxçıvan Muxtar Respublikası da yaşıl dünyaya etibarlı tərəfdaşdır.



## Yaşıl enerjidə Naxçıvan təcrübəsi

Naxçıvanın enerji təminatı siyasəti bərpaolunan enerji mənbələrinin inkişafı istiqamətində türüdülür. Təkcə 2025-ci ilin mart ayında Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin istismar sahəsində istehsal olunan elektrik enerjisinin 52,8 %-i alternativ və bərpa olunan enerji mənbələrinin payına düşüb. Bu bir ay üçün olduqca əhəmiyyətli nailiyyətdir. Bu rəqəmin təzahürü o deməkdir ki, Naxçıvan yaşıl dünyanın qurulması istiqamətində həyata keçirdiyi ekeoloji proqramların bəhrəsini görür.



Ümumiyyətlə, ötən ilin müvafiq dövrü ilə müqayisə edəndə görərik ki, ümumi elektrik enerjisi istehsalında su, külək, günəş elektrik stansiyalarının payı artıb. Alternativ və bərpaolunan enerji mənbələrində 15 milyon 596 min 247 kVt/saat elektrik enerjisi istehsal edilirsə, bu o deməkdir ki, Naxçıvan bərpaolunan enerji siyasətini uğurlu qurub, muxtar respublika ekoloji təmiz, yaşıl dünya naminə həyata keçirilən layihələrin effektiv nəticələrini görür.

Ölkə başçısı İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurla bərabər, Naxçıvanı da "yaşıl enerji" zonası elan etməsi muxtar respublikanın yaşıl enerji sahəsindəki məsuliyyətini həm artırdı, həm də təşviq etdi deyə bilərik. Naxçıvan 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündəki payının 30 faizə çatdırılmasını (hazırda 17 faiz təşkil edir) hədəf müəyyənləşdirib. Bu hədəfə çatmaq üçün muxtar respublikanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti də əhəmiyyətli rol oynayacaq. Naxçıvan ekoloji cəhətdən təmiz enerji istehsalı potensialına malik bölgədir.

Xüsusilə, Günəş enerjisindən istifadə imkanları Naxçıvan üçün əhəmiyyətli dərəcədə çoxdur. Çünki, Naxçıvan ərazisində günəşli saatların orta illik miqdarı 2600-2800 saat, hər kvadratmetrə düşən Günəş enerjisinin intensivliyi isə 0,8-1,2 kilovat-saat təşkil edir. Bu muxtar respublikada ilin bütün fəsillərində Günəş enerjisindən istifadə imkanı deməkdir. Buna görə də Naxçıvanda Günəşdən enerji almaq istiqamətində əhəmiyyətli dərəcədə böyük işlər görülür. O cümlədən, yeni Günəş elektrik stansiyalarının tikilib istifadəyə verilməsi Naxçıvanda istehsal edilən ümumi enerji miqdarında bərpaolunan enerjinin payını xeyli artırıb.



Yeri gəlmişkən, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan 11 prioritet istiqamət var ki, onlardan biri elektrik enerjisi istehsalının və ixracının artırılması ilə bağlıdır. Qarşıya qoyulan əsas hədəf "yaşıl enerji"nin istehsalında artıma nail olmaqdır. Xatırlatmaq yerinə düşər ki, elə dövlət proqramının qəbul olunduğu il - 2023-cü ildə muxtar respublikanın elektrik stansiyalarında istehsal edilən 474 milyon 569 min 561 kilovat-saat elektrik enerjisindən 19,89 faizi su elektrik və 12,75 faizi Günəş elektrik stansiyalarının payına düşüb. Bu muxtar respublika üçün böyük uğurdur.

## Beynəlxalq şirkətlərin gözü Naxçıvandadır

Naxçıvanın bərpaolunan enerji mənbələri sahəsindəki potensalı təbii olaraq diqqət çəkir. Bu marağın nəticəsində 2023-cü ildə Naxçıvanda keçirilən Azərbaycan-Tükiyə 3-cü Enerji Forumu və "Naxçıvan-yaşıl enerji zonası" beynəlxalq konfransında, eləcə də Bakı Enerji Forumunda Naxçıvanın enerji potensialı ilə bağlı xarici şirkətlərlə anlaşma memorandumları imzalandı. Həmin razılaşmaya görə Naxçıvanda "Masdar" şirkəti ilə ilkin mərhələdə gücü 150 meqavat olan Günəş Elektrik Stansiyasının tikilməsi də nəzərdə tutulub. Birləşmiş Ərəb Əmirliklərinin bərpa olunan enerji sahəsində ən iri şirkəti olan "Masdar" hazırda Naxçıvandakı tədqiqatlarını davam etdirir.

Çexiyanın "Czech Engineering" şirkətinin diqqəti isə Sədərək rayonunun Türkiyə ilə sərhədinə fokuslanıb. Şirkət bu ərazidə Günəş elektrik stansiyalarının inşası, enerji ötürücülərinin tikilməsi və istifadəsi istiqamətində böyük işlərə imza atacaq. Bundan əlavə, Almaniyanın "Notus" şirkəti də öz diqqətini Naxçıvana kökləyib. Şirkət "yaşıl enerji" layihələrini reallaşdırmaq üçün Naxçıvanın iqlimini olduqca əlverişli hesab edir. Planlaşdırılan pilot layihə çərçivəsində 70 meqavatlıq Günəş Elektrik Stansiyası inşa ediləcək. Stansiyanın inşası Naxçıvanın şimal-qərbində - Türkiyə ilə sərhəd xəttinə yaxın ərazidə planlaşdırılır.

## Bilik təməldir, təməl isə yaşıl və orqanik dünya

Naxçıvanın ekoloji siyasətinin uğurlu olmasının bir səbəbi də bu təbliğatın məktəblərdən başlanmasıdır. Enerji məlumatlılığının artırılması, yaşıl dünya naminə görüləcək işlər, təbiətin mühavizəsi istiqamətində təhsil ocaqlarında layihələr icra edilir, uşaqların ekoloji savadlılığı artırılır. Ekoloji savadlı nəsil formalaşdırmaq bu dünyaya, dolayısı ilə öz ölkəmizə ediləcək ən yaxşı hədiyyədir. Məktəblərin, tələbələrin könüllü fəaliyyətləri sayəsində tez-tez ekoloji aksiyalar, layihələr həyata keçirilir. Ağacların əhəmiyyəti, suvarılmaya diqqət, tullantıların çeşidlənməsi, ekoloji çantalara keçid kimi mövzularda təşkil edilən layihələr ətraf mühitin mühavizəsi üçün atılan ən mühüm addımlardandır.

Muxtar Respublika "yaşıq iqtisadi zona" elan edildikdən sonra həyata keçirilən başqa bir addım da "Oqranik Naxçıvan" konsepsiyasının yaradılması oldu. Bu, 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində yaradılan, muxtar respublikada orqanik kənd təsərrüfatının inkişaf etdirilməsi və orqanik məhsulların istehsalının tənzimlənməsi isitqamətində fəaliyyət göstərən publik-hüquqi şəxsdir. "Orqanik Naxçıvan" aqroparkının inkişaf konsepsiyasının və mobil tətbiqlərinin hazırlanması da onun fəaliyyətinin bir hissəsidir. Naxçıvanın ənənəvi maldarlıq, əkinçilik metodlarının müasir çağa uyğunlaşdırmaq, yaşıl dünyaya zərər vermədən emal sənayesinin yaradılması, kimyəvilərdən istifadə etmədən orqanik məhsullar əldə edilməsi diqqətdə saxlanan əsas amillərdir.

## Biomüxtəliflikdə Naxçıvan izi

Naxçıvan Muxtar Respublikasının biomüxtəlifliyi tarixən maraq cəlb edib. Biomüxtəliflik bir ekosistemdə və ya Yer kürəsində rast gəlinən müxtəlif həyat formalarıdır. İnsanların yaşaya bilmələri üçün yaşadıqları mühitin təmiz su və havası, münbit torpaqları, qida maddələri və digər ehtiyaclarını ödəmək üçün istifadə edə biləcəkləri müxtəlif materiallar olmalıdır. Həyat üçün zəruri olan maddələr və şərait, ətraf mühitin və bakteriyaların, göbələklərin, bitkilərin və heyvanların sayəsində təmin edilir. Bütün bu canlılara biomüxtəliflik deyilir.

Naxçıvan Azərbaycanın biomüxtəliflik cəhətdən ən zəngin bölgələrindəndir. Biomüxtəlifliyi qorumaq məqsədi ilə muxtar respublika ərazisində bir milli park və üç qoruq yaradılıb. Maraqlı burasıdır ki, bu park və qoruqların ümumi ərazisi Naxçıvanın ümumi ərazinin təxminən üçdə biri qədərdir. Təkcə bu fakt Naxçıvanda ekosistemin nə qədər əhəmiyyətli olmasını, onun qorunması üçün bütün tədbirlərin görülməsini təsdiqləyir. Qoruqlarda quraşdırılmış kameralar vasitəsi ilə nəsli kəsilməkdə olan canlıların həyat keyfiyyəti, artımı daim izlənir. Xüsusilə bəbirlərin mühavizəsi, təhlükəsiz şəraitdə böyüməleri və nəsil artırmaları üçün bu qoruqlar əhəmiyyətlidir.

Türkiyə Respublikasından gətirilən 150 min ədəd balıq körpələrinin Heydər Əliyev və Uzunoba Su anbarlarına buraxılması, 431,6 ha sahədə meşəsalma və meşəbərpa, toxumla əkin tədbirlərinin görülməsi, 170 min müxtəlif meyə və meyvə tinginin əkilməsi, Naxçıvan şəhəri, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının ümumtəhsil məktəblərinin ərazilərində keçirilmiş ağacəkmə aksiyalarında 4300 meyvə və dekorativ ağacın əkilməsi, Naxçıvan-Şahbuz avtomobil yolunun kənarında 1,1 ha sahədə salınmış media bağında 1000 ağacın əkilməsi, "Biomüxtəliflik günü" aksiyası çərçivəsində 100 min ağac əkilməsi sizcə də Naxçıvanın "yaşıl zona" ünvanı olmasının göstəricisi deyilmi?

***Lalə Mehralı***
***Yazı, "Şərq qapısı" qəzetinin elan etdiyi "Müstəqil Azərbaycan: Konstitusiya və Suverenlik İlinin təntənəsi" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

# Dondurulmuş tərəvəz və meyvələr necə dəyişir?

***Tərəvəz və meyvələrdən istifadə sağlam qidalanmanın əsasını təşkil edir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) gündə 5 porsiyaya qədər tərəvəz və meyvə istehlak etməyi tövsiyə edir. Amma təzə tərəvəz və meyvələrə çıxış həmişə mümkün olmaya bilər. Bir çox insan dondurulmuş məhsulların təzə məhsullarla eyni qida dəyərə malik olmadığını düşünür. Dondurulmuş tərəvəz və meyvələrin saxlama müddəti daha uzun olur, mövsüm xaricində də onlardan istifadə etmək mümkündür. SİA mövzu ilə bağlı araşdırma aparıb.***



## Tarladan süfrəyə gələn təzə meyvə və tərəvəzlər bu müddətdə nə qədər dəyişir?

Əksər meyvə və tərəvəzlər yetişməmişdən əvvəl yığılır və onlara yetişmə vaxtı verilir. Tərəvəz və meyvələr supermarketə gəldikdən sonra 1-3 gün anbarda qala bilər. Daha sonra, evlərdə yeməkdən əvvəl 7 günə qədər gözləmə müddəti olur. Bu isə o deməkdir ki, yetişməmişdən əvvəl yığılmış təzə tərəvəz və meyvələrin vitamin, mineral və antioksidantları inkişaf etdirmək üçün daha az vaxtı olur. Saxlama zamanı bəzi qida dəyərlərini itirmək riski yüksəkdir. Məsələn, təzə tərəvəzlərdəki C vitamini məhsul yığımından dərhal sonra azalmağa başlayır və saxlanma zamanı daha da azalır. Ona görə də ən yaxşısı, təzə meyvə və tərəvəzləri yığıldıqdan sonra tez yeməkdir.







## Dondurulmuş tərəvəz və meyvələr necə dəyişir?

Dondurulmaq üçün toplanan tərəvəz və meyvələr ən yüksək yetişmə dövründə və ən qidalı olduqları vaxtda yığılır. Məhsul yığıldıqdan sonra bir neçə saat ərzində yuyulur, doğranır, dondurulur və qablaşdırılır. Ümumiyyətlə, dondurmadan əvvəl heç bir kimyəvi maddə əlavə edilmir. Tərəvəzlər, ümumiyyətlə, dondurma prosesi zamanı qida dəyərinin böyük hissəsini saxlayırlar. Bitki qidalarının tərkibində "fitokimyəvi" adlanan birləşmələr olur ki, bunlar bitkilər tərəfindən istehsal edilir. Bəzi araşdırmalara görə, tərəvəzləri 2 aya qədər dondurmaq bu birləşmələrin tərkibinə ciddi təsir göstərmir. Lakin bir ildən çox müddətə saxlandıqda bəzi qida maddələri parçalanmağa başlaya bilər.

Dondurulmuş qidalarla bağlı müxtəlif məhsullar üzərində araşdırmalar aparılıb və müxtəlif nəticələr əldə edilib. Məsələn, dondurulmuş brokkolinin təzə brokkolidən daha çox riboflavin (vitamin B2) ehtiva etdiyi müəyyən edilib. Lakin noxud dondurulduqda, riboflavinin dəyəri qismən azalmışdır. Riboflavin ümumiyyətlə immunitet sistemini dəstəkləyən və suda həll olan bir vitamindir. Buna görə də brokoli və noxud kimi tərəvəzləri suda qaynadıb suyunu atmaq vitamin itkisinə səbəb ola bilər.

Yay mövsümündə süfrələrdə tez-tez rast gəlinən yaşıl lobya, dondurma prosesindən



sonra qida dəyəri baxımından əhəmiyyətli fərq göstərməyib. Bununla belə, dondurulmuş noxud, yerkökü və ispanaqda görmə və ümumi sağlamlıq üçün vacib olan beta-karotin miqdarının azaldığı müəyyən edilib. Bir araşdırma isə dondurulmuş çiy kələmin təzə kələmdən daha yüksək antioksidant tərkibinə malik olduğunu göstərib. Bu da sübut edir ki, dondurma prosesi bəzi tərəvəzlərin antioksidant tərkibini artıra bilər.

## Dondurulmuş qidaların faydaları və riskləri

Digər tərəfdən, dondurma, C vitamini və tiamin (vitamin B1) kimi istiliyə həssas qidaların əhəmiyyətli dərəcədə itkisinə səbəb ola bilər. Bir neçə araşdırmaya görə, dondurma C vitamini itkisini 10-80% azalda bilər. Orta hesabla isə təxminən 50% vitamin və mineral itkisinə səbəb ola bilər. Ancaq unutmaq olmaz ki, gündəlik həyatımızda tez-tez istifadə etdiyimiz qaynama, qızartma və mikrodalğalı soba kimi bişirmə üsulları belə təzə və ya konservləşdirilmiş tərəvəzlərdə qida itkilərinə səbəb olur.

Əgər tiamin (vitamin B1) və C vitamini bədəndə çox aşağı olarsa, müvafiq olaraq beriberi və skorbüt (sinqa) baş verə bilər. Lakin bu vitaminlər müxtəlif mənbələrdə tapıla bildiyi üçün onlar haqqında tez-tez narahat olmaq lazım deyil. B qrupu vitaminləri gündəlik həyatımızda yediyimiz yaşıl tərəvəzlər, tam taxıllar, süd məhsulları və ətlər kimi bir çox mənbədən əldə edilə bilər. Vitamin C isə tərəvəz və meyvələrdə çox olur. Həm B qrupu vitaminləri, həm də C vitamini orqanizm üçün qoruyucu rolunu oynayır və orqanizmdə uzun müddət saxlanılmır. Onların gündəlik qəbulu qidalanma tənliyinin vacib hissəsidir.

## Dondurulmuş məhsullar alarkən diqqət edilməsi vacib olan məqamlar

Dondurulmuş məhsulları alarkən, "inqrediyentlər" bölməsini diqqətlə yoxlamaq lazımdır. Dondurulmuş tərəvəz və meyvələr əsasən əlavələrdən azaddır, lakin bəzilərində şəkər və ya duz ola bilər. Yüksək qan təzyiqi olanlar duz əlavə edilməyən məhsulları seçməlidirlər. Əgər arıqlamaq prosesindəsinizsə, yadda saxlamaq lazımdır ki, souslar əlavə edilmiş məhsullar yağ və kalori qəbulunu artıra bilər.

## Nəticə və tövsiyələr

Dondurulmuş və təzə məhsulların qida tərkibini müqayisə edən tədqiqatlar bir qədər fərqli nəticələr verir. Bunun səbəbi, bəzi tədqiqatlarda saxlama və daşınma vaxtının təsirini nəzərə almadan təzə yığılmış məhsullardan istifadə olunması, digərlərində isə supermarketlərdən alınan məhsullardan istifadə edilməsi ilə bağlıdır. Ümumiyyətlə, sübutlar göstərir ki, dondurma qida dəyərini qoruyub saxlayır və təzə ilə dondurulmuş məhsulların qida tərkibi oxşar olur. Fermadan və ya öz bağınızdan təzə yığılmış meyvə və tərəvəzlər ən yüksək keyfiyyətə malikdir. Lakin supermarketdə alış-veriş edirsinizsə, dondurulmuş məhsullar təzə məhsullarla eyni dərəcədə ola bilər. Dondurulmuş meyvə və tərəvəzlər, təzə seçimlərə daha sərfəlidir. Ən yaxşı qida çeşidini əldə etmək üçün təzə və dondurulmuş məhsulların qarışığını seçmək ən yaxşı seçim ola bilər".

***Ayşən Vəli***

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*



**ELMİN SONU**

*(XXI YAZI)*

**Möcüzəli və mürəkkəb dünyaya səyahət: daxilimizdəki qüsursuz sistem necə yaradılıb?**

"Maddi dünyada möcüzəvi bir nizam vardır"- Albert Enşteyn



Yaradılışın ən mürəkkəb və inkişaf etmiş bioloji sistemi olan orqanizmimizdə baş verən hadisələrə qərəzsiz baxmaq və bu mexanizmin möhtəşəmliyini qavramaq üçün öz bədənimizin daxilində bir səfərə çıxaq. Bu səyahətdə bizi inanılmaz sürprizlər gözləyir. Görürük ki, ürəyimizin içində bir generator var və bu generator söndürül-



dükdə ehtiyat generator işə düşür. İncə bağırsağımızdakı hüceyrələrin qarşılarından keçən yüzlərlə müxtəlif maddə arasından dəmir atomunu tanıyıb tuta bildiyinin şahidi oluruq. Görürük ki, başımızdakı bir vəzdə istehsal olunan bir hormon molekulu çox uzaqda olan təyinat yerinə- məsələn, böyrəyimizə uzunsürən bir səfərdən sonra çatır və oradakı hüceyrələrə nə etmələrini əmr edir. Bu səyahət əsnasında, dərimizdən başlayaraq öz bədənimizin dərinliyinə qədər hər nöqtədə baş verən möcüzəvi hadisələrin şahidi oluruq.

Görürük ki, insan vücudu tamam başqa dünya, mükəmməl formalaşdırılmış bir şəhər kimidir. Bu şəhərdə nəqliyyat yolları, binalar, fabriklər, infrastruktur sistemləri, ən qabaqcıl texnologiyalardan daha üstün texnologiyaya sahib cihazlar, heç gözləmədiyi şəkildə şüur nümayiş etdirən xüsusi elementlər (hüceyrələr, hormonlar, vəzlər), tam təchizatlı əsgərlər və daha çoxu var. Üstəlik, bu dünya təkcə bizim bədənimizdə deyil. Ətrafımızda gördüyümüz hər insan bu möcüzəvi "dünya"ya sahibdir. Bütün insanlar kimi, heyvanlar da bədənlərində qüsursuz sistemlər, şüur lu davranan trilyonlarla hüceyrə, qərar vermə mexanizmləri olan vəzlər, üstün texnologiyaya malik mürəkkəb orqanlara malikdir.

Əti həzm edən turşuları ifraz edərkən, eyni zamanda özü ətdən olan mədənin özünü həzm etməməsi üçün xüsusi bir sistem qurulduğunu, əli kəsildikdə qanın laxtalanması üçün ən az 20 fermentin çox xüsusi bir planla hərəkətə keçdiyini, bədənin içindəki sistemlərdə mövcud olan nizamı və hər nöqtədə nümayiş etdirilən üstün dizaynı görən hər kəs, insan bədənini misilsiz bir güc sahibinin, üstün bir ağıl sahibinin yaratdığını açıq şəkildə görər.

İnsan bədənindəki təxminən 100 trilyon hüceyrə, vəz, bir çox orqan və toxumanın necə koordinasiyalı və yüksək şüurlu bir vəziyyətdə hesablanmış və yüksək dəqiqliklə mütəşəkkil hərəkət etdiyini görəndə adam heyrətə gəlir.

Məsələn, insan istənilən vaxt çox rahat nəfəs ala bilir. Nəfəs aldığı hava nə boğazını yandırır, nə başını gicəlləndirir, nə də başı ağrıyır. Çünki havadakı qazların nisbəti insan orqanizmi üçün ən uyğun miqdarda tənzimlənir. Bunları düşünəndə çox vacib başqa bir məqam ağıla gəlir: Atmosferdəki oksigen miqdarı indiki miqdardan bir az çox və ya bir az az olsaydı, hər iki vəziyyət canlıların yox olmasına səbəb olardı. Yer atmosferinin milyardlarla insanın (həmçinin digər canlıların)rahat nəfəs ala bilməsi üçün mükəmməl balanslı və nizamlı bir şəkildə yaradıldığı aydın görünür.

Bədənimizdəki hər bir hüceyrənin tənəffüs yolu ilə qəbul edilən oksigenə ehtiyacı var. Oksigen olmadan ürəyinizin döyünməsi, əzələlərin hərəkəti, hüceyrə bölünməsi və düşüncə kimi həyati proseslər baş verə bilməz.

Burun nəfəs aldığımız havanı ağciyərlər üçün uyğun edir. Toz, bakteriya və polen kimi təxminən 20 milyard yad maddə burun girişindəki tüklərə ilişib qalır. Bu manəeni aşa bilən zərərli hissəciklər ikinci müdafiə xətti olan selik ifrazatında tutulur.

Aldığımız nəfəsin ağciyərlərə getdiyi yolda qət etdiyi ən uzun yol nəfəs borunun içidir. Traxeyanı meydana gətirən qığırdaq quruluşu hər cür hərəkətə uyğunlaşır və elastikliyi sayəsində daim açıq qalır.

Ağciyərlər yüzlərlə budaqlara ayrılan bronxlardan ibarətdir. Bronxların uclarında "alveollar" adlanan, hər biri təxminən sancaq başı böyüklüyündə hava kisələri var. Sağlam bir ağciyərdə cəmi 300 milyon alveol var. Bu hava kisələrinin ümumi səth sahəsi tennis kortu ölçüsündədir. Bronxlardan keçən hava alveolları doldurur. Aldığınız hər nəfəsin qanınızı təmizləməsini təmin edən sistem sancağın ucu qədər kiçik bir qabarcığa quraşdırılmışdır. Sinənizin içərisinə 300 milyon baloncuğun yerləşdirilməsi və bu baloncukların hər an öz funksiyalarını mükəmməl və qüsursuz yerinə yetirməsi Yaradanın yaratma sənətini nümayiş etdirir.

İnsan səhər güzgüyə baxmağa davam etdikcə ağlına daha əvvəl ağlına belə gətirmədiyi şeylər gələ bilər. Məsələn, insanın kirpikləri, qaşları, sümükləri və dişləri müəyyən uzunluğa çatdıqda onların böyüməsi dayanır. Bununla belə, saçlarının uzanması dayanmır. Başqa sözlə, bədəndə zərərli və ya yararsız bir görünüş yarada biləcək hissələr böyüməyi dayandırarkən, estetik baxımdan xoş görünəcək saçlar böyüməyə davam edir. Bundan əlavə, sümüklərin uzanmasında tam uyğunluq və nisbət var. Məsələn, insanın qol sümükləri uzanır və gövdəsi qısa qalmır. Hər biri tam lazımi anda dayanır, sanki nə qədər getmək lazım olduğunu bilirmiş kimi.

Təbii ki, burada sadalanan şeylər bədəndə baş verən bəzi fiziki faktorlar nəticəsində baş verir. Ancaq düşünən insan da təəccüblənir: Bu kimyəvi reaksiyalar necə baş verir? Hər şeyin lazım olduğu qədər böyüməsini təmin edən hormonları və fermentləri bədənə kim yerləşdirdi? Və onların miqdarına və ifrazat vaxtına kim nəzarət edir? Cavab məlumdur.

Bizi təşkil edən və eynilə bizim kimi canlı olan təxminən 100 trilyon hüceyrəyə həyat verən ürəyimiz bu hüceyrələrin nəfəs almasını və qidalanmasını təmin edir, onları təmizləyir, xəstəliklərini sağaldır və düşmənlərdən qoruyur.

Bütün insanlar dünyaya gəlməzdən əvvəl 9 ay 9 gün ərzində ana bətnində inkişaf etməyə başlayan kiçik hüceyrələr toplusudur... 22-ci gündə o hələ paxladan da kiçikdirlər! Amma bir gün birdən-birə bu kiçik parça əmr almış kimi döyünməyə başlayır! Onun buna necə nail olduğu və niyə "həmin anda" hərəkətə başladığı bəlli deyil.

Ana bətnində yalnız 3 həftəlik olarkən döyünməyə başlayan bu mükəmməl nasosun, ürəyin çox əhəmiyyətli bir məsuliyyəti var; bədəndə qan dövranını təmin etmək. Yəni bizi təşkil edən və eynilə bizim kimi canlı olan təxminən 100 trilyon hüceyrəyə həyat vermək; bu hüceyrələrin nəfəs almasını və qidalanmasını təmin etmək, onları təmizləmək, xəstəliklərini müalicə etmək və düşmənlərdən qorumaqdır.

Ürək davamlı olaraq enerji istehsal edən, qanı koordinasiya edən, öz fəaliyyətini nizamlaya bilən, plan və hesablama, tədbir görmə və tez hərəkət etmə qabiliyyətinə malik xüsusi hüceyrələrdən ibarətdir.

Tüklər insanın ilk formalaşmasında öhdələrinə götürdükləri həyati bir vəzifə ilə qarşımıza çıxır. Sperma və yumurta birləşərək hüceyrə əmələ gətirməzdən əvvəl, yetkin yumurta ananın uterusuna getməlidir. Yumurta döllənmək və ananın uterusuna çatmaq üçün fallopiya borusundan uzun bir yol keçməlidir. Əslində, uşaqlıq borusundakı milyardlarla hüceyrə yumurtanı uterusa çatdırmaq vəzifəsini daşıyır. Bu hüceyrələr səthlərindəki tükcükləri eyni istiqamətdə hərəkət etdirirlər. Bu şəkildə yumurta hüceyrəsini getməsi lazım olan istiqamətə aparır, sanki əldən-ələ çox qiymətli bir yük daşıyırlar. Nəhayət, yumurta onu axtaran sperma ilə qarşılaşır. Spermalardan yalnız biri yumurtaya daxil olmağı bacarır. Döllənmiş yumurta uşaqlıq borusundakı tükcüklərin köməyi ilə ananın uşaqlığına doğru hərəkət edir. Hər hüceyrə öz vəzifəsini tam yerinə yetirir.

Bu elmi faktlara əsasən deyə bilərik ki, bizim doğumumuz bu tüklərin birgə hərəkətindən qaynaqlanır. Bundan əlavə, bu mürəkkəb sistem həyatımızın nə qədər ipdən asılı olduğunu göstərir. Bədənimizin hər yerinə çatan hüceyrələrimizin və qanımızın böyük bir hissəsi sudur. Bu suyun yumşaqlığı bir qədər zəif olsaydı, qanın damarlarımızdan axması çox çətinləşərdi. Qaraciyərin mürəkkəb damar şəbəkəsi heç vaxt qurulmazdı.

Bədənimizdəki təxminən 5 milyard kapilyarın ümumi uzunluğu 950 km-dir. Bəzi məməlilərdə əzələ sahəsinin bir kvadrat santimetrində 3000 açıq kapilyar var. Əgər insan bədənindəki ən kiçik kapilyarlardan 10 minini yan-yana qoysaq, onların ümumi qalınlığı ancaq qələmin qurğuşun hissəsinin böyüklüyündə olardı. Bu kapilyarların diametri 3-5 mikron arasında dəyişir. Bu millimetrin 3 və ya 5 mində biri deməkdir.

Amma təbii ki, qanın bu qədər dar damarlardan tıxanmadan və ağırlaşmadan hərəkət etməsi suyun yüksək axıcılığı sayəsində mümkün olur. Kapilyar sistem yalnız kanallara vurulan maye yüksək axıcılığa malik olduqda işləyir.

Quranda hər şey üçün bir ölçü təyin edildiyi bildirilir:

"O, hər şeyi müəyyən bir ölçü və nizam ilə yaratmışdır". (Furqan surəsi, 2)

Bu mövzuda gördüyümüz və göstərdiyimiz nümunələrin mövcud faktlarla müqayisədə son dərəcə məhdud olduğu aydındır. Dünyada mövcud olan tarazlıq nümunələrini saymaqla qurtarmaq mümkün deyil. Ancaq düşünən insan kainatın hər küncündə mövcud olan nizamı, mükəmməlliyi və tarazlığı açıq şəkildə görə bilir. Yaradan dünyamızda canlı və cansız hər şeyi mükəmməl bir dizaynla yaratmış və onu bizim xidmətimizə vermişdir. Bu həqiqət Quranda belə bildirilir:

(Bir nemət olaraq) O, göylərdə və yerdə olan hər şeyi sizə ram etdi. Şübhəsiz ki, bunda düşünən insanlar üçün ibrətlər vardır. (Quran, Casiyə surəsi, 13)

(Ardı olacaq)

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
24 aprel
2025-ci il

# Xarici, yoxsa yerli məhsul?

*Ekspert mühüm məqamlara aydınlıq gətirdi*



"Fikrimizcə, məhsulun keyfiyyəti əsas şərtdir. Onun yerli və ya xarici olması isə hazırkı mərhələdə o qədər də ciddi fərq yaratmır. Məsələn, əgər bir məhsul xaricdən idxal olunursa və tərkibində GMO (geni modifikasiya olunmuş orqanizm) varsa, bu məhsul gömrükdə saxlanıla bilər. Qanunvericiliyə əsasən, geni modifikasiya olunmuş məhsulların qida təyinatı ilə Azərbaycana idxalına icazə verilmir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Akif Nəsirli deyib. Akif Nəsirli sözlərinə belə davam edib: "Xarici məhsullara müəyyən sahələrdə üstünlük verilməsinin əsas səbəblərindən biri də onların gömrük süzgəcindən keçməsidir. Digər tərəfdən, ölkə daxilində istehsal olunan məhsulların əksəriyyəti bu cür nəzarət və yoxlamalardan keçmədən birbaşa bazara çıxarılır. Məsələn, xarici məhsul GMO olduğu üçün ölkəyə buraxılmırsa, bu tip məhsulun ölkə daxilində istehsalı və satışa çıxarılması mümkündür. Təəssüf ki, Azərbaycanda yerli qida məhsullarının istehsalına nəzarət və yanaşma xarici ölkələrlə müqayisədə daha səthidir.

Bu səbəbdən də mən şəxsən xarici məhsullara daha çox etibar edirəm. Məsələn, Azərbaycanda istehsal olunan kolbasaların böyük əksəriyyətini yemək mümkün deyil. Əgər ölkə daxilində təzə südün 1 litri 1 manatdırsa, həmin süddən alınan kərə yağının 5 manata satılması inandırıcı deyil və bu da yerli qida sənayesinə etimadı sarsıdır. Bu səbəblə hesab edirəm ki, məhsulun mənbəyindən daha çox onun keyfiyyətinə və nəzarət səviyyəsinə diqqət yetirilməlidir".

**_Ayşən Vəli_**

## ELAN

"Təmir - Tikinti AzNY " QSC-nin səhmdarlarının ümumi yığıncağı 21 iyun 2025-ci il tarixində, saat 10.00-da Bakı şəhəri, Nizami rayonu, O.Vəliyev küçəsi 1 ünvanında keçiriləcəkdir.

*Yığıncağın gündəliyində aşağıdakı məsələlər müzakirə ediləcəkdir:*

**1.** 2024-cü ilin maliyyə hesabatının təsdiqi.
**2.** Dividentlərin bölüşdürülməsinə dair.
**3.** Təşkilati məsələ (idarə heyətinin sədri və üzvlərin seçilməsi)
**4.** Digər məsələlər.

Bildiririk ki, COVİD-19 pandemiyası ilə əlaqədar Nazirlər Kabineti yanında Qərargahın qaydalarına dəyişiklik olarsa yığıncaq dəyişikliyə uyğun olaraq keçiriləcəkdir.

Səhmdarlar, ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 10.00-dan 18.00-dək QSC-nin idarə heyətinin sədri ilə əlaqə saxlamaqla tanış ola bilərlər.

*Əlaqə telefonu: 050-250-19-26*

**_Hörmətlə,_**
**_"Təmir-Tikinti AzNY" QSC-nin İdarə heyətinin sədri:_**


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Şamaxıda ər arvadını qəbiristanlıqda öldürüb

Şamaxıda qətl hadisəsi törədilib. SİA xəbər verir ki, hadisə rayon qəbiristanlığında qeydə alınıb. İlkin məlumata görə, ər öz arvadını şəhər qəbiristanlığında öldürüb. Hadisənin hansı şəraitdə baş verdiyi hələlik məlum deyil. Rayonun hüquq mühafizə orqanı əməkdaşları hadisə yerinə cəlb olunub. Fakt araşdırılır.



# "Nar" dan "OneRepublic" konsertinə xüsusi hədiyyə: Səhnəyə ən yaxın sən ol!




Sərfəli mobil operator "Nar" 28 aprel tarixində Bakı Kristal Zalında baş tutacaq "OneRepublic" konsertinin əsas dəstəkçisi olaraq, musiqi həvəskarlarını sevindirəcək. Musiqi və əyləncə dolu bu tədbirə öz abunəçilərini daha da yaxın etmək məqsədilə "Nar" sosial şəbəkələrdə xüsusi müsabiqəyə start verib.

Müsabiqədə iştirak etmək üçün sadəcə "Nar"ın rəsmi "Instagram" səhifəsindəki paylaşımın şərh bölməsində dostunu işarələmək kifayətdir. İştirakçılar arasından 5 nəfər təsadüfi seçimlə qalib müəyyən olunacaq və hər biri 2 nəfərlik pulsuz bilet qazanacaq. Qeyd edək ki, müsabiqə 24 aprel saat 23:59-a qədər davam edəcək. "Nar" gənclərin dinamik həyat tərzinə və musiqi zövqünə uyğun olaraq, texnologiya və əyləncəni bir araya gətirməyə davam edir. Həm musiqi, həm də hədiyyələrlə dolu bu fürsəti qaçırmayın!

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3000**